# FƏRQLİ 2020




AMADA


AMADA
STAY CLEAN
DÜRÜST
İDMANÇILAR ÜÇÜN
ƏDALƏTİN TƏMİNİ

# MÜNDƏRİCAT


01

AZƏRBAYCANDA ANTİDOPİNQ SİYASƏTİ 4
Direktordan ön söz 6
Fəaliyyət istiqamətləri 8

02

MİLLİ ANTİDOPİNQ STRUKTURU 10
Struktur 12
İdmançılar Məsləhətçi Komissiyası 14

03

DAYANIQLI İNKİŞAF PLANI 16
Sağlamlıq və təhlükəsizlik 19
Təhsil və profilaktika 19
Dürüstlük və insan hüquqları 19
İnnovasiyalar və artım 19
Ətraf mühit öhdəliyi 19

04

TEST PROQRAMI 20
Milli Test Proqramı 22
Test Bölüşdürmə Planı 23
Yarışlar 31
Beynəlxalq əməkdaşlıq 32

05

TƏHSİL VƏ MAARİFLƏNDİRMƏ 34
Təhsil üzrə əsas Tədbirlər 37
Seminarlar və Vebinarlar 38
AMADA heyətinin bilik və bacarıqlarının artırılması 39
Məcəllənin tətbiqi 44
Təhsil üzrə beynəlxalq standart 46

06

ARAŞDIRMA VƏ TƏHQİQATLAR 48
Təhqiqatlar 50
İfşa etmə məlumatları 51

07

ANTİDOPİNQ QAYDA POZUNTULARI 52
Nəticələrin emalı 54
İşlərin İdarəedilməsi Komissiyası 54
AQP üzrə işlər 55

08

ÜMUMDÜNYA ANTİDOPİNQ MƏCƏLLƏSİNİN TƏTBİQİ ÜZRƏ PROQRAM 60
Mərhələ I 62
Mərhələ II 62
Mərhələ III 63
Mərhələ IV 63

09

BEYNƏLXALQ FƏALİYYƏT 64
Beynəlxalq fəaliyyət 66
Ölkə təmsilçiliyi 66
Beynəlxalq görüşlər 68

10

ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIQ 70
Ölkədaxili əlaqələndirmə 72
Narkotiklə mübarizə 73
Beynəlxalq münasibətlər 74
Azərbaycan Antidopinq xronoloji qrafiki 76

11

MEDİA SİYASƏTİ 78
Mətbuatla əməkdaşlıq 80
Sosial media 81
Tədbirlər 81

12

SOSİAL MƏSULİYYƏT 84
Yaşıl ofis 86
Sosial məsuliyyət tədbirləri 86
COVID-19-la mübarizə 86
Xarı Bülbül 87

AMADA - İllik Hesabat 2020



# AZƏRBAYCANDA ANTİDOPİNQ SİYASƏTİ

İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Müstəqil Azərbaycanın himni çalınır, müstəqil Azərbaycanın bayrağı qaldırılır və müstəqil Azərbaycan dünyanın müxtəlif ölkələrində tanınır. Deməli olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur.

***Heydər Əliyev***

Sağlamlıq, bərabərlik, rəqabət və dostluq kimi dəyərləri özündə birləşdirən idman Azərbaycanın dövlət siyasətinin dəyişməz prioritetlərindəndir. İdmanın inkişafı və kütləviliyinin təmin olunması üçün ölkədə sistemli siyasət həyata keçirilir. Bununla bərabər Azərbaycan dövləti təmiz idman dəyərlərinin qorunması, idmanda ədalətin və dürüstlüyün təmin olunmasına da böyük əhəmiyyət verir. Azərbaycan üçün ədalət, şəffaflıq, dürüstlük və bərabərlik bütün sahələrdə olduğu kimi idman siyasətinin də təməl prinsipləridir.

Ölkəmizin 2004-cü ildə Avropa Şurasının Antidopinq Konvensiyasını və 2007-ci ildə YUNESKO-nun "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyasını imzalaması təmiz idman dəyərlərinə sadiqliyini göstərir.

2016-cı ilin dekabrında idmanda dopinqlə mübarizə və ölkə ərazisində mərkəzləşdirilmiş antidopinq siyasətinin həyata keçirilməsi missiyası ilə vahid milli antidopinq təşkilatı olan Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) təsis edilib. AMADA-nın yaradılması dopinqlə mübarizədə Azərbaycan dövlətinin iradəsini, əzmini və qətiyyətini göstərir.

AMADA-nın fəaliyyətinin əsasını bərabər imkanların və sağlam rəqabətin olduğu idman mühitinin yaradılması və dürüst idmançılar üçün ədalətin təmin edilməsi təşkil edir.

Ölkədə effektiv və dayanıqlı dopinq nəzarətini təmin etmək üçün AMADA fəaliyyətini daim təkmilləşdirir, müasir çağırışlar və meyllərə uyğunlaşdırır, habelə ən qabaqcıl təcrübələri və müasir innovativ üsulları tətbiq edir.

İdmanda ədalətin qorunması, qlobal səviyyədə aktualdır. AMADA təmiz idman dəyərlərinin qorunması üçün həm milli, həm də beynəlxalq səviyyədə tədbirlər görür və qlobal antidopinq hərəkatına öz töhfələrini verir. 4 illik fəaliyyəti dövründə AMADA ölkədə effektiv dopinq nəzarətini həyata keçirməklə yanaşı qlobal səviyyədə dopinqlə mübarizədə etibarlı tərəfdaş kimi nüfuz qazanıb.

# DİREKTORDAN ÖN SÖZ

# İNNOVATİV ADDIMLAR EFFEKTİVLİYİN AYRILMAZ HİSSƏSİDİR

Biz inkişaf, innovasiyalar və COVID-19 pandemiyası səbəbindən yaranmış sınaqlarla dolu fəaliyyətimiz barədə 2020-ci il üzrə illik hesabatımızı təqdim edirik. 2020-ci il bütün dünya üçün ağır sınaq oldu və pandemiya bütün sahələrə olduğu kimi dopinq nəzarəti sahəsinə də öz təsirini göstərdi. Elə buna görə də biz 2020-ci ildə fəaliyyətimizi pandemiyanın yaratdığı reallıqlar əsasında qurduq. COVID-19 pandemiyasının gətirdiyi məhdudiyyətlər eyni zamanda, bizi fəaliyyətimizin effektivliyini təmin etmək üçün yeni arayışlara sövq etdi.

Antidopinq sahəsi üçün ilin ən əlamətdar hadisəsi, 2021-ci ildə qüvvəyə minməsi nəzərdə tutulan yeni Ümumdünya Antidopinq Məcəlləsinin tətbiqi idi. AMADA bununla bağlı üzərinə düşən öhdəlikləri əvvəlcədən hazırlanan mərhələli proqram əsasında tam və vaxtında icra etdi. 2020-ci ildə pandemiyanın yaratdığı fərqli şəraitə baxmayaraq fəaliyyətimizi mövcud şərtlərə uyğunlaşdıraraq bu dövr ərzində də effektiv dopinq nəzarətini təmin etdik.

2020-ci il ölkəmiz üçün tarixə düşdü. Biz ədalətin, ərazi bütövlüyümüzün və işğaldan əziyyət çəkmiş vətəndaşlarımızın insan hüquqlarının uğurlu bərpasını təmin etməyin qürurunu yaşadıq. Azərbaycan beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq BMT-nin və digər beynəlxalq təşkilatların münaqişəyə dair sənədlərinin icrasını təmin etdi. Ədalətin bərqərar olması regionda davamlı sülhə və bütün xalqlarının nümayəndələrinin dinc yanaşı həyatının təmin edilməsinə tarixi imkan yaradıb.

İl ərzində AMADA qlobal antidopinq hərəkatında da aktiv iştirak edərək bir sıra beynəlxalq layihələri uğurla həyata keçirdi. Bundan əlavə beynəlxalq tərəfdaşlarımızla əməkdaşlığı daha da genişləndirərək həm öz təcrübəmizi bölüşdük, həm də antidopinq sahəsində dünyada baş verən yenilikləri tətbiq etdik.

Və həmişəki kimi bütün bu dəyişikliklər çərçivəsində özümüz haqqında açıq olaraq şəffaflıq, kreativliyin əsası olan müxtəliflik, daima özümüzü sınayaraq bəzən mümkünsüz hesab edilən yenilikləri tətbiq etməklə innovativ və dəyərlərə əsaslanan dayanıqlı yanaşmanı və davamlı uğuru nümayiş etdirdik.

Qürurla öncəki illərə baxaraq AMADA-nın necə nailiyyətlər əldə etdiyini görürük və yeni nailiyyətlər axtarışı ilə irəli addımlayırıq!

*Şəfəq Hüseynli*

AMADA - İllik Hesabat 2020

# Fəaliyyət istiqamətləri

AMADA idman dürüstlüyünü qorumaq, bilik və təcrübəni mərkəzləşdirmək və inkişaf etdirmək, dopinq təhlükəsinin bütün elementlərinin qarşısının alınmasını koordinasiya etmək, həmçinin antidopinq qayda pozuntularına dair monitorinq və aşkarlama, təhqiqat və məsuliyyətin həyata keçirilməsinin təmin edilməsi üzrə məsul qurumdur. AMADA eyni zamanda dopinqlə əlaqəli məsələlərdə idmançılar, idman təşkilatları, hüquq mühafizə orqanları və digər maraqlı tərəflər üçün vahid əlaqə nöqtəsidir. AMADA Azərbaycanda ədalətli və dürüst idman çıxışlarına və nəticələrinə nail olunması, idmançılar, köməkçi heyət, inzibatçılar, rəsmilər və digər maraqlı tərəflər tərəfindən dopinqə qarşı sıfır tolerantlıq münasibətinin təşviqi və bütün səviyyələrdə təhlükəsiz, ədalətli və inklüziv bir idman mühitinə nail olunması üçün dövlət siyasətini həyata keçirir.

## AMADA-nın 8 əsas fəaliyyət istiqaməti var:

**01** Dopinqlə mübarizə sahəsində dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək, tənzimləməni və qüvvədə olan qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək;

**02** Dopinqlə mübarizə sahəsinin inkişafını təmin etmək;

**03** Antidopinq proqramını və dopinqlə mübarizə, o cümlədən dopinq vasitələrinin qanunsuz dövriyyəsinin qarşısının alınması sahəsində müvafiq tədbirləri həyata keçirmək;

**04** Antidopinq sahəsi üzrə müvafiq qurumlarla fəaliyyətin koordinasiyasını təşkil və təmin etmək;

**05** Dopinq nəzarətini, o cümlədən bionümunələrin toplanılmasını, daşınmasını və yoxlanılmasını təşkil etmək və həyata keçirmək;

**06** İdmançıların, o cümlədən, köməkçi heyətin hüquqlarını və sağlamlığını qorumaq məqsədi ilə idmanda dopinqsiz iştirakı təbliğ etmək, idmanda dopinqdən istifadənin qarşısının alınması məqsədilə maarifləndirmə fəaliyyətini həyata keçirmək;

**07** Antidopinq qayda pozuntuları ilə bağlı araşdırmalar aparmaq və məsuliyyətin həyata keçirilməsini təmin etmək;

**08** Dopinqə qarşı mübarizə sahəsində Ümumdünya Antidopinq Agentliyi, beynəlxalq idman təşkilatları, antidopinq təşkilatları və bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə fəaliyyət göstərən digər beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı təmin etmək.

# 2 MİLLİ ANTİDOPİNQ STRUKTURU

**23 dekabr 2016**
Təsis edilmə tarixi

YUNESKO və Avropa Şurasının Konvensiyalarına, həmçinin Ümumdünya Antidopinq Məcəlləsinə uyğun

**7**
Şöbə

**7 üzv**
Müşahidə Şurası

**16**
Komitə üzvləri

**3**
Müstəqil Komitə

AMADA - İllik Hesabat 2020

# Struktur

AMADA öz fəaliyyətini effektivlik, sağlam və təhlükəsiz əmək şəraiti prinsipləri əsasında qurub. Bunun üçün yeni tələblər və imkanları nəzərə alaraq qurumun strukturu təkmilləşdirilir. Fəaliyyətinin səmərəliliyinin artırılması məqsədi ilə yeni struktur bölmələri yaradılır və şöbələr yenidən təşkil edilir. AMADA üçün əməkdaşların peşəkarlığının artırılması prioritetdir. AMADA-nın insan resursları strategiyasının əsasını təlim və bacarıqların inkişafı, rəhbərlik qabiliyyətlərinin artırılması, habelə səmərəli iş mühiti, rahat iş şəraiti və adekvat maaş prinsiplərinə əsaslanır. Məhz bu prinsiplərə sadiq olduğu üçün AMADA daim iş üçün cəlbedici yerdir.






# İdmançılar Məsləhətçi Komissiyası

AMADA üçün idmançıların fikirləri hər zaman əhəmiyyətlidir. Bunun üçün də idmançıların dopinqlə mübarizəyə qatılması, onların əməkdaşlığa cəlb edilməsi və onlara bərabər imkanların təmin edilməsinə xüsusi önəm verir. İdmançıların antidopinq siyasətində iştirakı, AMADA-nın fəaliyyətində idmançıların təmsil edilməsi və bu prosesə töhfələrin verilməsi məqsədi ilə hələ 2019-cu ildə İdmançılar Məsləhətçi Komissiyasının yaradılması təşəbbüsü irəli sürülmüşdür. Müxtəlif idman növlərini təmsil edən nüfuzlu idmançılardan ibarət Komissiya həmin ildən fəaliyyətə başlamış və ölkədə antidopinq siyasətinə öz töhfəsini vermişdir. 21 yanvar 2020-ci il tarixində isə İdmançılar Məsləhətçi Komissiyası rəsmi olaraq təsis olunmuşdur. 12 üzv idmançıdan ibarət Komissiyanın missiyası AMADA daxilində idmançıları təmsil etmək və idmançıların hüquqlarının müdafiəsi və təmiz idmanın təşviqi ilə bağlı AMADA-ya tövsiyələr verməkdir. Komissiyanın vəzifələri əsasən əsas missiyanın dəstəklənməsi, idmaçılarla əlaqədar xüsusi layihələrin idarə edilməsi, idmançılar və AMADA arasında əlaqələndirici funksiyanın yerinə yetirilməsi və Komissiyanı müxtəlif antidopinq tədbirlərində təmsil edilməsindən ibarətdir. AMADA Komissiya ilə birlikdə əhəmiyyətli antidopinq məsələlərini müzakirə edir, həmçinin idmançıların rəylərinin öz fəaliyyətinə inteqrasiya edilməsi üçün əməkdaşlıq edir. Komissiyada müxtəlif idman növləri üzrə nüfuzlu idmançılar təmsil olunur. 12 avqust 2020-ci il tarixində İdmançılar Məsləhətçi Komissiyasının əsasnaməsinə uyğun olaraq Komissiyanın sədr və sədr müavini seçkiləri keçirilmişdir. Açıq səsvermə qaydasında keçirilən seçkidə Komissiya üzvlərinin yekdil rəyi ilə cüdoçu ikiqat paralimpiya çempionu İlham Zəkiyev sədr, sərbəst güləşçi, üçqat dünya çempionu, Olimpiya oyunlarının bürünc medalçısı Hacı Əliyev isə sədr müavini seçilmişdir.

İdmançılar Məsləhətçi Komissiyası öz fəaliyyəti ilə təmiz idman dəyərlərinin qorunmasına mühüm töhfələr verir və idmançıları AMADA-da layiqincə təmsil edir.

> **Bizim idman şöhrətimizi yüksəklərə qaldıran görkəmli idmançılarımıza da tövsiyə edirəm ki, onlar maarifləndirmə işlərində fəal iştirak etsinlər.**
> İlham Əliyev

## AMADA İdmançılar Məsləhətçi Komissiyası:


**İlham Zəkiyev**
Paracüdo (sədr)


**Hacı Əliyev**
Güləş (sədr müavini)


**Ayan Xankişiyeva**
Velosiped idmanı


**Aynur Məmmədova**
Parataekvondo


**Fəridə Əliyeva**
Karate


**Fuad Qurbanov**
Atıcılıq


**Kamran Şahsuvarlı**
Boks


**Nazim Babayev**
Atletika


**Rəsul Çunayev**
Güləş


**Rüstəm Orucov**
Cüdo


**Ruslan Abışov**
Futbol


**Siyana Vasileva**
Gimnastika



# 3 DAYANIQLI İNKİŞAF PLANI

## 11 QLOBAL MƏQSƏD

BMT-nin 17 qlobal məqsədindən 11-i AMADA-nın Dayanıqlı İnkişaf Planında əks etdirilmişdir

## 5 İNKİŞAF İSTİQAMƏTİ

- SAĞLAMLIQ və TƏHLÜKƏSİZLİK
- TƏHSİL və PROFİLAKTİKA
- DÜRÜSTLÜK və İNSAN HÜQUQLARI
- İNNOVASİYALAR və ARTIM
- ƏTRAF MÜHİT ÖHDƏLİYİ

# Dayanıqlı İnkişaf Planı

AMADA öz fəaliyyətini uzun müddətli strateji planlar əsasında qurur. Daha dayanıqlı, şəffaf, inklüziv və innovativ gələcəyə töhfə vermək üçün öz fəaliyyət planında beynəlxalq çağırışları, qlobal inkişaf meyllərini nəzərə alır. AMADA fəaliyyətə başladıqdan sonra özünün 4 illik fəaliyyətini və hədəflərini əks etdirən Dayanıqlı İnkişaf Planı hazırlamışdır. Bu Planın hazırlanmasında BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri əsas götürülüb. Hansı ki, bu, 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında təsdiq edilmiş və bütün dünya ölkələri tərəfindən dəstəklənmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əksini tapıb. Gündəlikdə 2030-cu ilədək daha yaxşı və dayanıqlı gələcəyə çatmaq üçün 17 qlobal məqsəd müəyyənləşdirilmişdir. Bu qlobal çağırışı nəzərə alan AMADA özünün Dayanıqlı İnkişaf Planında həmin 17 məqsəddən 11-nin əks olunduğu beş istiqamət müəyyənləşdirmişdir.

Dopinqlə mübarizənin əsasını sağlamlıq, dürüstlük, bərabərlik kimi ictimai dəyərlər təşkil edir. Bununla bərabər hüquqlar, təhsil, gender bərabərliyi, təhlükəsizlik, ədalət, rifah və sair qlobal etik dəyərlər də mövcuddur. AMADA özünün Dayanıqlı İnkişaf Planını hazırlayarkən bu prinsipləri nəzərə almaqla yanaşı buna innovasiyalar və sosial məsuliyyət dəyərlərini də əlavə etmişdir AMADA 4 illik fəaliyyəti dövründə bütün bu qlobal dəyər və prinsiplərə sadiq qalmış və Dayanıqlı İnkişaf Planını uğurla icraetmişdir. Onun uğurla icrası yeni strateji hədəflərin müəyyənləşdirilməsi üçün möhkəm zəmin hazırlamışdır.

> **Azərbaycan "Minilliyin İnkişaf Məqsədləri"nə nail olmuş, "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrasında isə ciddi irəliləyiş əldə etmişdir.**
>
> İlham Əliyev




## SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

Sağlamlıq dopinqlə mübarizənin əsas dəyərlərindən birini təşkil edir.
Əlaqəli DİM: Yaxşı səhiyyə və rifah, BMT DİM No.3

## TƏHSİL VƏ PROFİLAKTİKA

Təhsil davamlı inkişaf üçün ən güclü vasitələrdən biri olduğu kimi, dopinqlə mübarizənin də əsas vasitələrindəndir.
Əlaqəli DİM: Keyfiyyətli təhsil, BMT DİM No.4

## DÜRÜSTLÜK VƏ İNSAN HÜQUQLARI

İnsan hüquqları davamlı inkişaf üçün şərait yaradır. Müxtəliflik, bərabər imkan, gender balansı, ayrıseçkiliyə yol verməmə kimi prinsiplərə sadiqlik bütün fəaliyyət sahələri üçün vacibdir.
Əlaqəli DİM: Gender bərabərliyi, BMT DİM No 5; Bərabərsizliyin azaldılması, BMT DİM No.10; Sülh, ədalət və səmərəli institutlar, BMT DİM No. 16

## İNNOVASİYALAR VƏ ARTIM

AMADA işçilərin iştirakı, müxtəliflik, rəqəmsallaşma, innovasiyalar, əməkdaşlıq və qlobal tərəfdaşlıqla yanaşı şəffaflığa və hesabatlılığa əsaslanır.
Əlaqəli DİM: Layiqli əmək və iqtisadi artım, BMT DİM No.8; Sənaye, innovasiya və infrastruktur, BMT DİM No.9; Məqsədlər üçün tərəfdaşlıqlar, BMT DİM No.17

## ƏTRAF MÜHİT ÖHDƏLİYİ

AMADA-nın ətraf mühitin qorunmasına həssas yanaşması özündə təkrar emal, enerji və su istifadəsini azaltmaq, tullantıların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerjidən istifadəni ehtiva edir.
Əlaqəli DİM: Sərfəli və təmiz enerji, BMT DİM No.7; Məsuliyyətli istehsal və istehlak, BMT DİM No.12; İqlim dəyişikliyinə qarşı mübarizə, BMT DİM No.13

4

# TEST PROQRAMI

**1046** ÜMUMİ TEST SAYI

**178** YARIŞ MÜDDƏTİNDƏ

**868** YARIŞDAN KƏNAR MÜDDƏTDƏ

**1203** NÜMUNƏ SAYI

**966** SİDİK NÜMUNƏLƏRİ

**109** İBP

**128** QAN NÜMUNƏLƏRİ

## TBP

**26** İDMAN NÖVÜ

**33** İDMAN YARIMNÖVÜ

**86** BEYNƏLXALQ SİFARİŞLƏR

## QTQ

**119** İDMANÇILARIN SAYI

## NÜMUNƏ TOPLAMA HEYƏTİ

**31** HEYƏTİN SAYI

**15** YENİ İBP PASPORT

# Test Proqramı

AMADA idman təqvimine və idman növlərinə bağlı risk amilləri, elmi ixtiralar, təhqiqat, sosial araşdırmalara əsaslanan test planını icra edir. Test planı Olimpiya, qeyri-Olimpiya və para-idman növləri və onları təmsil edən müxtəlif qrup idmançıları əhatə edir.

## TOPLANMIŞ NÜMUNƏLƏR




Ümumi nümunə sayı: 1203
Ümumi test sayı: 1046

**26** | COVİD-19 səbəbindən laboratoriya tərəfindən analiz olunmamış nümunələr (1 sidik, 25 qan)

**17** | Əlavə sidik nümunələri





## TEST BÖLÜŞDÜRMƏ PLANI

Testlərin sayı və növləri, idman növləri, idmançı kateqoriyaları, toplanmış nümunə növləri və nümunə analizi növləri arasında müvafiq olaraq prioritetlər Test Bölüşdürmə Planında (TBP) öz əksini tapır.

### TBP

| İdman/idman yarım növləri | Sayı |
|---|---|
| TBP üzrə idman növləri | 26 |
| TBP üzrə idman yarım növləri | 33 |
| TBP-ya daxil olan Olimpiya idman növləri | 25 |
| TBP-ya daxil olan qeyri-Olimpiya idman növləri | 1 |
| TBP-ya daxil olan Paralimpiya idman növləri | 4 |

## TEST MÜDDƏTİ







YARIŞDAN KƏNAR MÜDDƏTDƏ
ÜMUMİ TEST SAYI: 868

YARIŞ MÜDDƏTİNDƏ
ÜMUMİ TEST SAYI: 178

**Yarışdan kənar müddətdə** - Yarış müddəti olmayan hər hansı müddət.

**Yarış zamanı** - ÜADA Məcəlləsinə və Beynəlxalq standartlara əsaslanaraq İdmançının iştirak edəcəyi yarışdan əvvəlki bir gün saat 23:59-dan başlayan və yarışın və həmin yarışla əlaqədar nümunə toplanması prosesinin bitdiyi anadək olan müddət.

## AYLAR ÜZRƏ TESTLƏRİN SAYI




## QRUPLARIN TEST EDİLMƏSİ






AMADA - İllik Hesabat 2020

## Testlərin ölkə ərazisində bölünməsi

| Şəhər/rayon/region | Reqəmlə | Faizlə |
|---|---|---|
| Bakı | 889 | 84,99% |
| Göy-Göl | 44 | 4,21% |
| Xırdalan | 32 | 3,06% |
| Qusar | 20 | 1,91% |
| Şəki | 13 | 1,24% |
| Gədəbəy | 11 | 1,05% |
| Mingəçevir | 8 | 0,76% |
| Sumqayıt | 6 | 0,57% |
| Lənkəran | 6 | 0,57% |
| Qobustan | 2 | 0,19% |



## İDMAN NÖVLƏRİ ÜZRƏ TESTLƏR

| İdman növü | Test sayı | YM | YKM |
|---|---|---|---|
| Atletika-Tullanmalar | 20 | 6 | 14 |
| Atletika-Orta məsafə 800-1500 m | 14 | 6 | 8 |
| Atletika- Sprint 400m və ya daha az | 14 | 6 | 8 |
| Atletika-Atışlar | 7 | 6 | 1 |
| Atletika-Uzaq məsafə 3000m və daha çox | 7 | 7 | 0 |
| Atıcılıq | 21 | 0 | 21 |
| Ağır Atletika | 80 | 29 | 51 |
| Akademik Avarçəkmə | 5 | 0 | 5 |
| Badminton | 3 | 0 | 3 |
| Basketbol | 15 | 0 | 15 |
| Boks | 100 | 14 | 86 |
| Voleybol | 24 | 0 | 24 |
| Velosiped-Şosse | 72 | 15 | 57 |
| Su idmanı-Üzmə uzun məsafə 800m və daha çox | 8 | 3 | 5 |
| Su idmanı-Üzmə orta məsafə 200-400m | 19 | 3 | 16 |

*YM - Yarış müddətində , YKM - Yarışdan kənar müddətdə

AMADA - İllik Hesabat 2020

## İDMAN NÖVLƏRİ ÜZRƏ TESTLƏR

| | | |
|---|---|---|
| Qılıncoynatma | 21 | YM:0 YKM:21 |
| Futbol | 102 | YM:40 YKM:62 |
| Gimnastika-Bədii | 16 | YM:0 YKM:16 |
| Gimnastika-Tamblinq | 4 | YM:0 YKM:4 |
| Gimnastika-İdman gimnastikası | 16 | YM:0 YKM:16 |
| Həndbol | 25 | YM:0 YKM:25 |
| Cüdo-Cüdo | 121 | YM:34 YKM:87 |
| Cüdo-Para cüdo | 8 | YM:0 YKM:8 |
| Karate | 100 | YM:0 YKM:100 |
| Kanoe/Kayak | 3 | YM:0 YKM:3 |
| Para-atletika | 1 | YM:0 YKM:1 |
| Para-üzgüçülük | 1 | YM:0 YKM:1 |
| Sambo | 20 | YM:9 YKM:11 |
| Taekvondo | 39 | YM:0 YKM:39 |
| Para-taekvondo | 5 | YM:0 YKM:5 |
| Tennis | 18 | YM:0 YKM:18 |
| Triatlon | 10 | YM:0 YKM:10 |
| Güləş | 127 | YM:0 YKM:127 |

*YM - Yarış müddətində , YKM - Yarışdan kənar müddətdə

## Qeydiyyata alınmış Test Qrupu

Məkan məlumatı yarışdan kənar zamanı effektiv planlaşdırılma və öncədən xəbərdarlıq olmadan test keçirmək üçün əvəzsiz rol oynayır. AMADA-nın Qeydiyyata Alınmış Test Qrupuna daxil edilən idmançılar məlumatların doğru, dəqiq və vaxtında təqdim edilməsinin əhəmiyyəti, həmçinin məkan məlumatının düzgün təqdim edilməməsi və buraxılmış testlərin hüquqi nəticələri barədə müvafiq təlimlərdən keçirlər.

Test etmə və Təhqiqatlar üzrə Beynəlxalq Standarta əsasən, Qeydiyyata alınmış Test Qrupuna daxil olunmuş idmançılar AMADA tərəfindən müəyyən olunmuş meyarlar üzrə seçilmişdir. Qeydiyyata alınmış Test Qrupu müxtəlif kateqoriyalara daxil olan İdmançıları əhatə edir. Bu qrupa daxil olan İdmançılar ildə ən azı 3 dəfə olmaqla yarışdan kənar müddətdə dopinq nəzarətində keçirilir.

## QTQ

| Qeydiyyata alınmış Test Qrupu | Sayı |
|---|---|
| İdmançılar | 119 |
| İdman/idman yarım növləri | 21 |
| Olimpiya idman növləri üzrə idmançıların sayı | 117 |
| Qeyri-Olimpiya idman növləri üzrə idmançıların sayı | 2 |
| Kişilər | 87 |
| Qadınlar | 32 |
| Beynəlxalq səviyyəli idmançılar | 52 |
| Milli səviyyəli idmançılar | 67 |
| Azyaşlı idmançılar | 17 |
| Məhdud imkanlı idmançılar | 2 |





## Uzunmüddətli saxlanma

Ümumdünya Antidopinq Məcəlləsinə və Test etmə və Təhqiqatlar üzrə Beynəlxalq Standartlara əsasən AMADA uzunmüddətli strategiya yaratmışdır.




## Yarışlar: beynəlxalq və milli səviyyəli yarışlar

| No | İdman | Milli çempionatlarda iştirak | Başlama tarixi | Bitmə tarixi |
|---|---|---|---|---|
| 1. | Atletika | Atletika üzrə Bakı Çempionatı 2003-2004 | 05.01.2020 | 06.01.2020 |
| 2. | Cüdo | Cüdo üzrə Azərbaycan Birinciliyi U18 | 14.01.2020 | 16.01.2020 |
| 3. | Sambo | Azərbaycan Sambo Kuboku | 14.02.2020 | 16.02.2020 |
| 4. | Cüdo | Cüdo U 21 Azərbaycan Çempionatı | 27.02.2020 | 28.02.2020 |
| 5. | Üzgüçülük | Üzgüçülük üzrə Qış Çempionatı | 28.02.2020 | 29.02.2020 |
| 6. | Boks | Boks 2004-2005 Azərbaycan Çempionatı | 28.02.2020 | 01.03.2020 |
| 7. | Velosiped | Şosse üzrə Azərbaycan Çempionatı | 17.06.2020 | 18.06.2020 |
| 8. | Futbol | 7 futbol üzrə qarşılaşma | | |

| No | İdman | Beynəlxalq çempionatlarda iştirak | Başlama tarixi | Bitmə tarixi |
|---|---|---|---|---|
| 1. | Gimnastika | Batut Gimnastikası üzrə Dünya Kuboku 2020 | 15.02.2020 | 16.02.2020 |
| 2. | Gimnastika | MAG-WAG Gimnastikası üzrə Dünya Kuboku 2020 | 12.03.2020 | 13.03.2020 |
| 3. | Ağır Atletika | Ağır Atletika Onlayn Dünya Kuboku 2020 | 12.11.2020 | 19.11.2020 |

## Beynəlxalq əməkdaşlıq

Ümumdünya Antidopinq Məcəlləsinə əsasən milli antidopinq təşkilatları effektiv testlərin həyata keçirilməsi məqsədilə qarşılıqlı əməkdaşlıq etməlidirlər.

| İdman növləri üzrə beynəlxalq sifarişlər |
| --- |
| Üzgüçülük |
| Boks |
| Gimnastika |
| Güləş |
| Karate |
| Taekvondo |
| Avarçəkmə |
| Ağır Atletika |




| AMADA tərəfindən verilmiş beynəlxalq sifarişlər | Sayı |
| --- | --- |
| Russiya Federasiyasının ərazisində (RUSADA) | 10 |
| Türkiyə ərazisində (TADC) | 5 |

| İdman növləri üzrə beynəlxalq sifarişlər |
| --- |
| Velosiped |
| Voleybol |
| Həndbol |
| Cüdo |
| Güləş |
| Taekvondo |





## NÜMUNƏ TOPLAMA HEYƏTİ

AMADA-nın Nümunə Toplama Heyəti 13 DNİ, 13 DNŞ və 5 QTİ/DNİ-dən ibarətdir. Nümunə Toplama Heyəti ildə bir dəfə reakreditasiyadan keçir. Reakreditasiya nəzəri təlim, test imtahanı və yerində audit olmaqla 3 mərhələdən ibarətdir.

AMADA Nümunə Toplama Heyətini daimi inkişaf etdirir və təkmilləşdirir. AMADA-nın bütün DNİ-ləri Azərbaycan, rus, türk, ingilis dillərində səlis danışır. Bundan əlavə, bəzi DNİ-lər həmçinin alman, ispan və koreya dillərini bilir. AMADA-nın bütün QTİ-ləri ali tibb təhsilinə malikdirlər.







## AMADA COVID-19 pandemiya dövründə qorunma tədbirləri

COVID-19 pandemiyası antidopinq təşkilatları tərəfindən dopinq nəzarəti testlərinin keçirilməsi daxil olmaqla antidopinq sahəsinə təsir etdi. Sərhədlərin bağlanması, uçuşların ləğvi, hərəkət məhdudiyyətləri, karantin, ofislərin bağlanması və ümumiyyətlə idman yarışlarının ləğv edilməsi antidopinq təşkilatlarının iş tərzini dəyişdirməyə sövq etdi.

Bu baxımdan AMADA, milli antidopinq proqramı ilə əlaqədar olaraq, COVID-19 pandemiyasına fəal şəkildə reaksiya verdi. Pandemiyanın təsirinə məruz qalan sahələr üzrə, xüsusilə də məkan məlumatı, nümunə toplama prosesi, nümunə toplama heyəti, avadanlıq, nümunələrin laboratoriyalara daşınması, test etmə prosesinin təmini üçün xüsusi təlimat hazırlanmışdır. Pandemiyanın gedişatından asılı olaraq bu təlimat vaxtaşırı yenilənmişdir.



# 5 TƏHSİL VƏ MAARİFLƏNDİRMƏ



# Təhsil və Maarifləndirmə

Təmiz idman dəyərlərinin təbliği və antidopinq sahəsində ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılması və xüsusilə də gənc nəsil nümayəndələrinin bu sahədə biliklərinin artırılması AMADA üçün xüsusi əhəmiyyət kəsb edir. Məqsəd təmiz idman dəyərlərini idman ictimaiyyəti başda olmaqla cəmiyyətə aşılamaq, onları dopinq vasitələrinin zərərləri barədə məlumatlandırmaq və istifadəsindən çəkindirməkdir.

Təhsil və maarifləndirmə proqramı idmançıları hüquq və öhdəlikləri barədə məlumatlandırmaq, düzgün – təmiz idman dəyərlərinə əsaslanan fərdi qərar qəbul etməyə kömək edə biləcək etibarlı və aydın məlumatların əldə edilməsini təmin etmək, həmçinin uşaq, yeniyetmə və gənc idmançılar arasında şəxsi mənəvi dəyərlər, etik normalara uyğun davranış qabiliyyətini inkişafına yönəldilmişdir.

Bu prinsiplər əsasında AMADA 2020-ci ildə geniş təhsil və maarifləndirmə proqramı həyata keçirmişdir. COVİD-19 pandemiyası səbəbi ilə yaranmış məhdudiyyətlərlə əlaqədar nəzərdə tutulmuş bir sıra təlim və maarifləndirmə tədbirləri yeni, distant formata keçirilmişdir. Distant şəkildə müxtəlif mövzulara həsr edilmiş vebinarlar və idmançılar tərəfindən ünvanlanmış suallara onlayn cavablandırma formantında maarifləndirmə sessiyaları təşkil edilmişdir. Distant antidopinq maarifləndirməsi üzrə materiallar daha geniş sayda auditoriyanı məlumatlandırmaq məqsədilə vebsaytda, sosial media şəbəkələrində və digər internet resurslarında yerləşdirilmişdir.

**Gələcək üçün biz sağlam gənclik hazırlamalıyıq. Fiziki cəhətdən sağlam, mənəvi, əqli cəhətdən sağlam, düşüncəli gənclər hazırlamalıyıq.**

**Heydər Əliyev**





# 2020-ci il antidopinq təhsili üzrə fəaliyyətin icmalı

AMADA antidopinq sahəsində idmançılar və ümumiyyətlə ictimaiyyətin məlumatlandırılması istiqamətində 2020-ci il ərzində bir sıra təlim və maarifləndirmə tədbirləri həyata keçirmişdir. COVID-19 pandemiyası səbəbi ilə ölkədə yaranmış məhdudiyyətlərlə əlaqədar nəzərdə tutulmuş bir sıra təlim və maarifləndirmə tədbirləri distant formata keçirilmişdir.



# Vebinarlar

**Həkimlər üçün vebinar**
- 2021-ci ildə TİI ilə bağlı qüvvəyə minəcək dəyişikliklər haqqında

**Terapevtik İstifadəyə İcazə Komitəsi üçün vebinar**
- 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsi və TİI üzrə Beynəlxalq Standartda edilən dəyişikliklərlə bağlı

**İdmançının köməkçi heyəti üçün vebinar**
- 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsində və Beynəlxalq Standartlarda edilən dəyişikliklər haqqında

**İdmançılar üçün vebinarlar**
- COVID-19 və antidopinq fəaliyyəti
- Qadağan Edilmiş Maddələr və Üsulların Siyahısı
- Terapevtik İstifadə üçün İstisnalar
- Qida əlavələrinin yaratdığı risklər
- Doğru hesab etdiyiniz yanlışlar
- Gənc İdmançılar üçün antidopinq dəyərləri haqqında
- 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsində və Beynəlxalq Standartlarda edilən dəyişikliklər haqqında QTQ-ya daxil olan idmançılar üçün
- 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsində və Beynəlxalq Standartlarda edilən dəyişikliklər haqqında

**İdman federasiyalarının rəhbərləri üçün vebinar**
- 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsində və Beynəlxalq Standartlarda edilən dəyişikliklər haqqında

**Məsul şəxslər üçün vebinarlar**
- 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsindəki dəyişikliklər haqqında (2)

**İdmançılar Məsləhətçi Komissiyası üçün vebinar**
- 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsində və Beynəlxalq Standartlarda edilən dəyişikliklərlə bağlı

**Geniş İctimaiyyət üçün vebinar**
- 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsində və Beynəlxalq Standartlarda edilən dəyişikliklərlə bağlı

# AMADA-nın əməkdaşlarının iştirak etdiyi vebinarlar

**Dopinq Nəzarəti**
- ÜADA Risklərin Qiymətləndirilməsi və Test Planının təşkili
- ÜADA İdmançı qrupları və Məkan məlumatı
- Effektiv test proqramının təşkili
- Nümunə Toplama Heyəti üçün təlim, akkreditasiya və reakreditasiya
- BTA Qeydiyyata alınmış Test Qrupu və Məkan Məlumatı, ADAMS və yenilənmiş "Athlete Central" tətbiqi

**Konfrans/İclas**
- "İdmançıların bilməyərək dopinq istifadəsindən qlobal qoruma, Terence O'Rorke (Məlumatlı idman)
- ICIC 2020 – Məcəllənin tətbiq edilməsi barədə

**Elm və tətqiqatlar**
- Şərq Tərəfdaşlığının Elm və Innervasiyalar üzrə Panelin 8-ci iclası
- Sosial elmlər sahəsində tədqiqatda ÜADA-nın rolu

**Təlimlər**
- ADAMS, yeni nəsil transformasiyası inkişafı
- Lozanna Universiteti – Dopinq: İdman,Təşkilatlar və Elm

**COVID-19**
- COVID-19 pandemiyasının milli və beynəlxalq S4 siyasəti və tətbiq təcrübəsinin futbol və digər idman tədbirlərinə təsiri

**Məcəllə və Standartlar**
- ÜADA "Təhsil üzrə Beynəlxalq Standart və Təlimatlar"
- ÜADA " Terapevtik İstifadələr üçün İstisnalar: əsas prinsiplər və 2021 TİI üçün Beynəlxalq Standartda əsas dəyişikliklər "
- ÜADA "2021 Ümumdünya Antidopinq Məcəlləsində əsas dəyişikliklər"
- ÜADA "Qadağan edilmiş Siyahı 2021"
- ÜADA "Müstəqil Komitələr"
- ÜADA "Məcəlləyə uyğunluq"
- ÜADA "Məlumatların qorunması"
- ÜADA "MADT müstəqilliyi"
- ÜADA "Auditi üçün hazırlıq: Beynəlxalq Məxfilik və Şəxsi Məlumatların Qorunması Təlimatı ilə uyğunluq"

## Sual-cavab platforması

AMADA-ya sosial şəbəkələr vasitəsilə daxil olmuş müraciət və sualların cavblandırılması məqsədilə sual-cavab platforması hazırlanmışdır. İdmanda qadağan edilmiş maddə və üsullar, antidopinq qayda pozuntuları, dopinq istifadəsi ilə bağlı tətbiq edilə biləcək sanksiyalar, idmançıların səhhətlərində yaranmış problem və ya travmalar zamanı TİI müraciət qaydaları, qida əlavələrindən istifadə və onun təhlükələri mövzusunda office@amada.az elektron poçt ünvanı və sosial şəbəkələrdən daxil olmuş sualların AMADA mütəxəssisləri tərəfindən onlayn və video formatda sual-cavab formatında cavablandırılması təmin edilmişdir.

Vebinarlarda təqdim edilmiş tədris materialları daha geniş auditoriyanı məlumatlandırmaq məqsədilə AMADA-nın YouTube kanalına yerləşdirilmişdir.




## AMADA heyətinin bilik və bacarıqlarının artırılması

2020-ci il ərzində AMADA əməkdaşları bir sıra beynəlxalq tədbirdə iştirak etmişdir. COVID-19 pandemiyası səbəbindən yaranmış şərait nəzərə alınmaqla əksər tədbirlər distant şəkildə həyata keçirilmişdir. Vebinar və online müzakirələr zamanı əsas suallar 2021-ci ildən etibarən qüvvəyə minəcək Ümumdünya Antidopinq Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı olmuşdur.





AMADA - İllik Hesabat 2020

## Seminarlar

1 — Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi

2 — Azərbaycan Velosiped İdmanı Federasiyası

7 — Qeydiyyata alınmış Test Qrupu

2 — Azərbaycan Atıcılıq Federasiyası

2 — Azərbaycan Gimnastika Federasiyası







SAY NO!
TO DOPING




STAY CLEAN
Antidopinq





TƏMIZ




# Məcəllənin tətbiqi

2021 – Ümumdünya Antidopinq Məcəlləsində dəyişikliklər və əlavələrin geniş idman ictimaiyyəti arasında tanıdılması və tətbiq edilməsi məqsədilə AMADA tərəfindən dörd mərhələdən ibarət Məcəllənin Tətbiq Planı hazırlanaraq 2020-ci il ərzində həyata keçirilmişdir.

Maarifləndirmə məqsədilə AMADA idmançılara, onların köməkçi heyətinə və federasiya rəsmilərinə vebinarlar keçirmiş, onlayn formatda məlumat sessiyaları təşkil etmişdir. Məcəlləyə dair yeniliklərlə mümkün qədər çox sayda idmançı və onların köməkçi heyət üzvünün tanış olması üçün AMADA milli federasiyalar üzrə Məsul Şəxslər Şəbəkəsini yaratmış və bu heyət üçün xüsusi təlim təşkil etmişdir. Eyni zamanda, AMADA tərəfindən 2021-ci il üzrə Məcəllə və Beynəlxalq Standartlara edilmiş dəyişikliklər haqqında məlumat əldə etmək məqsədilə hazırlanmış bütün materiallar AMADA-nın YouTube kanalında, vebsaytında və bütün sosial şəbəkə hesablarında yayımlanmışdır. Geniş ictimaiyyətin bu yeniliklərə diqqətini cəlb etmək məqsədilə AMADA jurnalistlər üçün onlayn görüş təşkil etmiş və yeniliklər haqqında onları ətraflı məlumatlandırmışdır.

# Məsul Şəxslər

Yeni Təhsil üzrə Beynəlxalq Standartın tələblərinə uyğun olaraq AMADA antidopinq sahəsində biliklərin artırılması, eyni zamanda dopinqlə mübarizə və təmiz idman dəyərlərinin təbliği istiqamətində birgə fəaliyyətin gücləndirilməsi məqsədilə Məsul Şəxslərin təyin olunması üçün idman federasiyalarına müraciət etmişdir. Müraciətə cavab olaraq 25 federasiya antidopinq maarifləndirməsi üzrə öz Məsul Şəxsini təyin etmişdir. AMADA-nın Təhsil departamenti tərəfindən Məsul Şəxslər üçün "Ümumdünya Antidopinq Məcəlləsinə dəyişikliklər - 2021-ci il" mövzusunda təlim proqramı təşkil edilmişdir. Proqramın materialları üzrə məlumatların mənimsənilməsini qiymətləndirmək məqsədilə məsul şəxslərə onlayn sorğu və qiymətləndirmə sənədi göndərilmişdir. Sorğunu uğurla başa vurmuş Məsul Şəxslərə AMADA tərəfindən sertifikatlar təqdim edilmişdir.

Gələcəkdə antidopinq maarifləndirmə sahəsində idmançılar və köməkçi heyətinin ehtiyaclarının qiymətləndirilməsi, bu ehtiyaclara uyğun şəkildə təlim proqramının tərtib edilməsi və məlumatların daha geniş auditoriyaya çatdırılması məqsədilə AMADA-nın Təhsil Departamenti Məsul Şəxslər şəbəkəsindən geniş istifadə etməyi nəzərdə tutur.





# Məlumat materialları

AMADA geniş idman ictimaiyyətinin Ümumdünya Antidopinq Məcəlləsinə 2021-ci ildən etibarən tətbiq ediləcək əlavə və dəyişikliklər haqqında məlumatlandırılmanı təmin etmək məqsədilə məlumat materialları hazırlayaraq çap etmişdir.

2021-ci ildən etibarən qüvvəyə minəcək Qadağan edilmiş Siyahı AMADA tərəfindən Azərbaycan dilinə tərcümə edilərək idman federasiyaları (assosiasiyaları), bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən təşkilatlara (Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Milli İdman Tibb və Reabilitasiya İnstitutu, Azərbaycan Respublikasının Milli Olimpiya və Milli Paralimpiya Komitələri) göndərilmişdir. Qadağan edilmiş siyahı "Azərbaycan" qəzetində çap edilmişdir. Eyni zamanda Siyahı və digər məlumat materialları AMADA-nın vebsaytında da yerləşdirilmişdir.

Həmçinin, Ümumdünya Antidopinq Məcəlləsində edilmiş əlavə və dəyişikliklər haqqında məlumat bukletləri müvafiq qurumlara göndərmişdir.

Əlavə olaraq, AMADA-nın Təhsil şöbəsi sosial şəbəkələrdə bir sıra məlumat materialları yerləşdirmiş, həmçinin əyləncəli onlayn viktorina təşkil etmişdir.

# Azərbaycan Respublikasında antidopinq sahəsində təhsil proqramları

Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində fəaliyyətin təşkilati-hüquqi, sosial-iqtisadi əsaslarını və dövlət siyasətinin əsas prinsiplərini, hər kəsin bədən tərbiyəsi və idmanla məşğul olmaq hüququna təminatı "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu verir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

Respublikada bədən tərbiyəsi və idman sahəsində peşəkar kadrların yetişdirilməsi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası (ADBTİA) tərəfindən həyata keçirilir. ADBTİA-da ixtisas fənləri ilə yanaşı 2020-ci ildən etibarən antidopinq maarifləndirmə üzrə Magistr proqramı tədris edilir. Tədris AMADA tərəfindən həyata keçirilir. Tədris proqramı antidopinq hərəkatının yaranma tarixi, Ümumdünya Antidopinq Agentliyinin fəaliyyəti, Ümumdünya Antidopinq Məcəlləsi, antidopinq qayda pozuntuları, dopinq nəzarəti prosesi, qadağan edilmiş siyahı, terapevtik istifadə üçün istisnalar və təmiz idman dəyərləri haqqında mövzuları əhatə edir.

# Təhsil üzrə beynəlxalq standart

Yeni Təhsil üzrə Beynəlxalq Standartın tələblərinə əsasən 2021-ci il üzrə Təlim Planı tərtib edilmişdir. Təlim planında təlim prosesinin planlaşdırılması, fokus qruplarının müəyyən edilməsi, təlim iştirakçılarının say hədləri, təlim sessiyalarının müddəti, təlim materiallarında dair tələblər, təlim nəticələrinin monitorinqi və qiymətləndirilməsinə dair tələblər öz əksi tapıb.

Təlim Planı idman fəaliyyəti ilə məşğul olan idmançılar, federasiya rəsmiləri və idmançının köməkçi heyətinin üzvləri ilə görüşlər və şifahi rəy sorğusu zamanı müəyyən etdiyi aşağıdakı əsas mövzuları əhatə edir:



# 6 ARAŞDIRMA VƏ TƏHQİQATLAR

**19** HƏDƏFLİ TESTLƏR

**43** TƏHQİQAT SAYI

**9** İFŞA ETMƏ MƏLUMATLARIN SAYI

**4** TƏHQİQAT NÖVÜ

## TƏHQİQAT APARILAN İDMAN NÖVLƏRİ

- VELOSİPED İDMANI
- CÜDO
- KARATE
- BOKS
- GÜLƏŞ
- TAEKVONDO
- HƏNDBOL
- ÜZGÜÇÜLÜK
- FUTBOL
- TENNİS
- TRİATLON
- VOLEYBOL
- AĞIR ATLETİKA

# Araşdırma və Təhqiqatlar

AMADA müxtəlif məlumat toplanması və təhqiqatların aparılması uslularından istifadə edərək dopinqlə qətiyyətlə mübarizə aparır. AMADA bu istiqamətdə qayda və protokollara, Ümumdünya Antidopinq Məcəlləsi və Test etmə və təhqiqat üzrə Beynəlxalq Standarta uyğun olaraq fəaliyyət göstərir. AMADA idmançıları və ümumiyyətlə cəmiyyəti təmiz və sağlam idman üçün mübarizədə əməkdaşlıq etməyə dəvət edir. Bununla bağlı, qadağan edilmiş maddə və üsullardan istifadə edən idmançıları ifşa edənlər üçün AMADA tərəfindən məxfi məlumat paylaşım kanalları yaradılıb. Bu məlumat kanallarına AMADA-nın internet səhifəsindəki anonim məlumat paylaşım platforması, sosial şəbəkələrdəki hesabları, elektron ünvanı və telefon əlaqəsi daxildir.

Nəticədə əldə olunan məlumatlar üzrə tədbirlər görülür, o cümlədən hədəfli testlər keçirilir. Digər hallarda isə həmin məlumatların ətraflı araşdırılması zərurəti yaranır. Bunun üçün ayda pozuntusunu müəyyən etmək məqsədilə hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edilir. AMADA idmanda dopinqlə mübarizə üçün bütün imkanlarını səfərbər edib və müxtəlif texnoloji platformalardan istifadə edir. Təhqiqat üçün barəsində araşdırma aparılan şəxslərin sosial media hesabları və onların əlaqələri barədə vizual xəritənin avtomatlaşdırılmış qaydada yaradılması üçün Social Net Shadow Dragon və IBM I2 Analyst Notebook platformaları əldə edilmişdir.

## Təhqiqat sayı

Cəmi 43




## İfşaetmə məlumatların daxil olunmasına dair bölgü




## Toplanan məlumat əsasında Hədəfli Testlər



7

# ANTİDOPİNQ QAYDA POZUNTULARI

**8** YENİ AŞKARLANMIŞ AQP-LƏR

**32** MƏKAN MƏLUMATI POZUNTUSU

**6 İDMAN NÖVÜ ÜZRƏ**

- AĞIR ATLETİKA
- CÜDO
- VELOSİPED İDMANI
- KARATE
- PARA-CÜDO
- FUTBOL

# Antidopinq Qayda Pozuntuları

## Nəticələrin emalı

Nəticələrin emalı, idmançının mümkün antidopinq qayda pozuntusu barədə bildirişin verilməsindən başlayaraq, iddia və birinci instansiya və ya apellyasiya üzrə dinləmə prosesinin sonu (apellyasiya şikayəti verildikdə) daxil olmaqla, məsələnin tam həlli arasında müddəti əhatə edən prosesdir.

AMADA-nın Nəticələrin emalı prosesi Hüquq şöbəsi tərəfindən həyata keçirilir və ədalət, bitərəflik və ağlabatan müddət prinsiplərinə əsaslanır. Antidopinq qayda pozuntusunun həlli mexanizmi hüquq şöbəsi tərəfindən idarə edilən AMADA-nın İşlərin İdarəedilməsi Komissiyası və əməliyyat və təşkilati cəhətdən müstəqil birinci və apellyasiya instansiyaları (İntizam və Apellyasiya Komitələrinin) qurumlarından ibarətdir.

Ümumi qayda olaraq idmançı dinləmə üçün hüququndan imtina edən zaman və ya AMADA-nın İşlərin İdarəedilməsi Komissiyası tərəfindən təklif edilən sanksiyaya razılığını verdiyi zaman AMADA qərarverici qurum hesab edilir. Əks halda, idmançı işi mübahisələndirirsə, bu zaman dinləmə və qərar verilməsi üçün iş İntizam Komitəsinə ötürülür (Apellyasiya Komitəsinə apellyasiya şikayəti vermək hüququ saxlanılmaqla). Beynəlxalq səviyyəli idmançıların işləri barədə qərarın qəbul edilməsi üçün İsveçrənin Lozanna şəhərində yerləşən İdman Arbitraj Məhkəməsinə (İAM) apellyasiya şikayəti verilə bilər.

## İşlərin İdarəedilməsi Komissiyası

İşlərin İdarəedilməsi Komissiyası mümkün antidopinq qayda pozuntusuna dair zəruri qərarların qəbul edilməsi üçün təsis edilmişdir. İşlərin İdarəedilməsi Komissiyası tətbiq edilən AMADA Antidopinq Qaydalarına uyğun olaraq mümkün antidopinq pozuntuları ilə əlaqədar görülməli müvafiq tədbirləri müəyyən etmək səlahiyyətinə malikdir.

İşlərin İdarəedilməsi Komissiyası Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Qanununa, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, AMADA-nın Nizamnaməsi, tətbiq edilən Ümumdünya Antidopinq Məcəlləsi və AMADA Antidopinq Qaydaları, Əsasnaməsi və digər tətbiq edilən normativ-hüquq aktlara uyğun fəaliyyət göstərir.





## Test müddəti üzrə AQP




- 7 AQP yarışdan kənar müddətdə (87,5%)
- 1 AQP yarış müddətində (12,5%)

## AQP Növləri

| *Pozuntu növləri üzrə | Sayı |
|---|---|
| Hər hansı qadağan edilmiş maddə və ya qadağan edilmiş üsulun yarışmadan kənar müddətdə qadağan olunmasına baxmayaraq tətbiq etmək və ya tətbiq etmək cəhdi | 1 |
| Qeyri-əlverişli Analiz Nəticəsi | 2 |
| Qadağan edilmiş maddə və ya qadağan edilmiş üsuldan istifadə yaxud istifadə cəhdi | 5 |
| Nümunəni təqdim etməmək | 2 |
| Dopinq nəzarətinin hər hansı bir hissəsinin saxtalaşdırılması və ya saxtalaşdırma cəhdi | 1 |

*bir idmançı bir neçə antidopinq qayda pozuntusu törətdiyindən AQP sayı AQP növləri sayı ilə eyni olmaya bilər.

## Yaş üzrə AQP

- **2** azyaşlı (25%)
- **6** yetkin (75%)



## Maddələr sinfi 2020-ci il üzrə

S5. Diuretiklər və gizlədici maddələr (furosemide)

S4. Hormon və metabolik modulyatorlar (clomifene)

| İdman növləri üzrə AQP |
|---|
| Ağır atletika |
| Cüdo (2 AQP) |
| Velosiped İdmanı (2 AQP) |
| Karate |
| Para-cüdo |
| Futbol |

## 2020-ci il üzrə AQP
01.06.2021 tarixinədək

| No | İdman | Test müddəti | Gender | Pozuntu | Maddə | Sanksiya |
|---|---|---|---|---|---|---|
| 1. | Ağır Atletika | YKM | Kişi | 2.8 | yoxdur | 4 il |
| 2. | Cüdo | YM | Qadın | 2.1, 2.2 | Furosemide | 1 il |
| 3. | Velosiped idmanı | YKM | Kişi | 2.3, 2.5 | yoxdur | Davam edir |
| 4. | Velosiped idmanı | YKM | Qadın | 2.3 | yoxdur | 2 il |
| 5. | Karate | YKM | Qadın | 2.1, 2.2 | Clomifene | Xitam |
| 6. | Para-cüdo | YKM | Kişi | 2.2 | yoxdur | Xitam |
| 7. | Futbol | YKM | Kişi | 2.2 | yoxdur | Xitam |
| 8. | Cüdo | YKM | Kişi | 2.2 | yoxdur | Davam edir |

*YM - Yarış müddətində , YKM - Yarışdan kənar müddətdə





**2020-ci il üzrə mövcüd AQP-lər üzrə iyirmi iki (22) qərar qəbul edilmişdir.**

Hesabat dövrü ərzində AMADA tərəfindən on iki (12), İntizam Komitəsi tərəfindən səkkiz (8), Apellyasiya Komitəsi tərəfindən isə iki (2) iş üzrə qərar qəbul edilmişdir. Üçü (3) AMADA, biri (1) İntizam Komitəsi tərəfindən olmaqla cəmi dörd (4) xitam qərarı qəbul edilmişdir. Barələrində qərar qəbul edilən işlər üzrə qısa məlumat aşağıdakı kimidir:

a. barəsində AMADA -nın qərar qəbul etdiyi AQP-lər

| No | İdman | Gender | Qərar növü | Pozuntu ili | Maddə | Diskvalifikasiya müddəti |
|---|---|---|---|---|---|---|
| 1. | Boks | kişi | Pozuntu | 2019 | 2.1 | 2 il |
| 2. | Ağır Atletika | qadın | Pozuntu | 2019 | 2.1 | 4 il |
| 3. | Sambo | kişi | Pozuntu | 2019 | 2.1 | 2 il |
| 4. | Cüdo | qadın | Pozuntu | 2019 | 2.1; 2.2 | 1 il |
| 5. | Taekvondo | kişi | Pozuntu | 2019 | 2.1; 2.2 | 2 il |
| 6. | Boks | kişi | Pozuntu | 2019 | 2.1 | 4 il |
| 7. | Taekvondo | qadın | Pozuntu | 2019 | 2.1; 2.2 | 2 il |
| 8. | Karate | qadın | Pozuntu | 2019 | 2.1 | 1 il |
| 9. | Karate | qadın | Xitam | 2020 | 2.1; 2.2 | - |
| 10. | Para-cüdo | kişi | Xitam | 2020 | 2.2 | - |
| 11. | Futbol | kişi | Xitam | 2020 | 2.2 | - |
| 12. | Karate | kişi | Pozuntu | 2019 | 2.1; 2.2 | 2 il |

b. barəsində İntizam Komitəsinin qərar qəbul etdiyi AQP-lər

| No | İdman | Gender | Qərar növü | Pozuntu ili | Maddə | Diskvalifikasiya müddəti |
|---|---|---|---|---|---|---|
| 1. | Atletika | qadın | Xitam | 2019 | 2.3; 2.5 | - |
| 2. | Ağır Atletika | kişi | Pozuntu | 2019 | 2.8 | 4 il |
| 3. | Taekvondo | qadın | Pozuntu | 2019 | 2.1; 2.2 | 4 il |
| 4. | Boks | kişi | Pozuntu | 2019 | 2.3 | 2 il |
| 5. | Güləş | kişi | Pozuntu | 2019 | 2.3 | 4 il |
| 6. | Güləş | kişi | Pozuntu | 2019 | 2.1; 2.2 | 4 il |
| 7. | Boks | kişi | Pozuntu | 2019 | 2.1 | 4 il |
| 8. | Cüdo | qadın | Pozuntu | 2020 | 2.1; 2.2 | 1 il |

c. barəsində Apellyasiya Komitəsinin qərar qəbul etdiyi AQP-lər

| No | İdman | Gender | Qərar növü | Pozuntu ili | Madde | Diskvalifikasiya müddəti |
|---|---|---|---|---|---|---|
| 1. | Ağır Atletika | kişi | Pozuntu | 2019 | 2.1 | 12 il |
| 2. | Ağır Atletika | qadın | Pozuntu | 2019 | 2.1 | 2 il |

**İctimaiyyətə açıqlama**

2020-ci il üzrə 10 AQP barədə məlumat AMADA-nın rəsmi internet səhifəsində yerləşdirilmişdir.

## Medalların geri qaytarılması

Antidopinq qayda pozuntusunu törətmiş və barəsində sanksiyanın tətbiq edilməsi qərarı qüvvəyə minən bütün idmançıların dopinq nəzarətinin keçirildiyi zaman əldə etdiyi nəticələri ləğv edilməli və müvafiq olaraq medallar geri alınmalıdır. Bununla yanaşı, onların əvəzinə həmin nəticəyə avtomatik nail olmuş idmançıların yerləri bərpa edilməli və müvafiq medallar təqdim edilməlidir.

Dopinq nəzarətinin əsas məqsədi idmanda ədalət prinsipinin təmin edilməsi, təmiz idmanın və idmançıların hüquqlarının qorunmasıdır. Hər hansı bir idmançının qadağan edilmiş maddə və ya üsullardan istifadə etməklə əldə etdiyi nəticələr idmanda ədalət və bərabər imkanlar prinsipinin, habelə yarışlarda iştirak edən digər idmançıların hüquqlarının pozulmasıdır. Bu cür hallarla ciddi mübarizə aparmaqla yanaşı, yarışlarda iştirak edən digər idmançıların hüquqlarının bərpası vacib məsələlərdən biridir. Bu, yarışlarda iştirak edən digər idmançıların karyerası, idman reytinqi və beynəlxalq yarışlarda iştirak imkanları baxımından əhəmiyyətlidir. Bu səbəbdən, qadağan edilmiş maddə və ya üsullardan istifadə edən idmançıların antidopinq qayda pozuntusu törətdikləri yarışlarda əldə edilən nəticələri ləğv edilməli və rotasiya qaydasında sıralama yenidən tərtib olunmalıdır.

İdmançıların antidopinq qayda pozuntuları nəticəsində əldə etdikləri xalların və medalların rotasiya qaydasında ləğv edilməsi, geri qaytarılması və yenidən hesablanması üçün AMADA Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və müvafiq respublika idman federasiyaları ilə əməkdaşlıq edir.





## Hüquqi yardım

İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyada ittiham edilən və mümkün sanksiya ilə üzləşən şəxsə öz müdafiə xərclərini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman müvafiq hüquqi yardımın göstərilməsi haqqında müddəa mövcuddur. Antidopinq icraatının məqsədi cəzalandırmaq deyil, ədalətin bərqərar olunması və təmiz idman prinsiplərinin müdafiə olunmasıdır.

Antidopinq sisteminin tələbləri ilə idmançıların müdafiə edilməsi zərurətinin tarazlaşdırılmasının yollarından biri idmançılara müvafiq hüquqi yardımın təmin edilməsidir. Bu məqsədlə, AMADA pulsuz hüquqi yardım proqramını həyata keçirir.

Proqram çərçivəsində antidopinq qayda pountusunu törətmiş və hüquqi yardıma ehtiyacı olan idmançılara AMADA ilə əməkdaşlıq edən hüquq şirkəti tərəfindən pulsuz hüquq xidmətləri göstərilir.

## Onlayn dinləmələr

2020-ci il ərzində COVID-19 pandemiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilmiş sərt karantin rejiminin tətbiqi səbəbilə icraatı davam etdirilən işlərin Komitələr tərəfindən baxılmasında gecikmənin yaşanmaması və Ümumdünya Antidopinq Məcəlləsinin və Standartlarının müəyyən etdiyi müddətlərin ötürülməməsi üçün il ərzində Komitələr qarşısında dinləmələr Zoom və MS Teams platformaları üzərindən onlayn şəkildə keçirilmişdir.

# 8 ÜMUMDÜNYA ANTİDOPİNQ MƏCƏLLƏSİNİN TƏTBİQİ ÜZRƏ PROQRAM

**Mərhələ I**
yanvar -mart 2020

**Mərhələ II**
aprel-iyun 2020

**Mərhələ III**
iyul-sentyabr 2020

**Mərhələ IV**
oktyabr-dekabr 2020

AMADA - İllik Hesabat 2020

# ÜMUMDÜNYA ANTİDOPİNQ MƏCƏLLƏSİNİN TƏTBİQİ ÜZRƏ PROQRAM

## I MƏRHƏLƏ
(yanvar -mart 2020)

Bu mərhələ ərzində AMADA əməkdaşlarına yeni Ümumdünya Antidopinq Məcəlləsi və beynəlxalq standartları ilə tanış olmağa imkan yaradıldı. Bu mərhələnin sonunda AMADA-nın şöbələri Agentliyin uyğunlaşmaya ehtiyacı olduğu əsas sahələr üzrə, habelə ikinci mərhələ çərçivəsində 2021-ci il üçün yenilənmiş, hüquqi bazaya sahib olmaq məqsədilə qanunvericilik və digər aktlardakı dəyişikliklər üzərində işləyərkən nəzərə alınması lazım olan konkret məsələləri əks etdirən təqdimatlar hazırladılar.

## II MƏRHƏLƏ
(aprel-iyun 2020)

Bütün şöbələrdən məlumatlar toplandıqdan sonra AMADA-nın Hüquq şöbəsi qanunverciliyə müvafiq dəyişikliklərin edilməsi üzrə təkliflər paketinin hazırlanması üzrə işlərə başladı.

Təkliflər paketi üzərində işlər yekunlaşdırıldıqdan sonra rəy və təsdiqin alınması üçün ÜADA-ya təqdim edilmişdir. ÜADA-nın rəyi əldə edildikdən sonra ilkin qiymətləndirilmə üçün qanunvericilik üzrə təkliflər paketi müvafiq dövlət orqanlarına göndərilmişdir.

"İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" 29 noyabr 2016-cı il tarixli 447-VQ nömrəli Azərbaycan Respublikasının Qanununa təklif olunan əlavə və dəyişikliklər 2021-ci il Ümumdünya Antidopinq Məcəlləsinin antidopinq sahəsinə gətirdiyi yeni anlayışların və digər hüquq və öhdəliklərin yerli qanunvericiliyə daxil edilməsi məqsədilə təklif edilmişdir.

I və II mərhələ ərzində AMADA ÜADA-nın Məcəllənin Tətbiqi üzrə Dəstək Proqramının (CISP) təqdim etdiyi imkanlardan yararlanmışdır.



## III MƏRHƏLƏ
(iyul-sentyabr 2020)

Qanunvericiliyə dəyişiklik dair təkliflər paketi üzrə işlərin ilkin mərhələsi yekunlaşan kimi AMADA 2021-ci il Antidopinq Qaydaları layihəsi, həmçinin daxili qayda və prosedurlara zəruri dəyişikliklər üzərində işlərə start verdi.

AMADA ÜADA-nın milli antidopinq təşkilatları üçün Model Qaydalarından faydalanaraq onun müddəalarını yerli tələblərə uyğunlaşdırmaqla Antidopinq Qaydalarını hazırlamışdır. 2020-ci il ərzində Antidopinq Qaydaları 3 dəfə yenidən işlənmiş və ÜADA tərəfindən yekun təsdiq edilmişdir. Antidopinq Qaydaları Azərbaycan və ingilis dillərində AMADA-nın rəsmi saytında yerləşdirilmişdir.

Bununla yanaşı, test etmə, nəticələrin emalı, araşdırmalar və təhqiqat, hüquq, təhsil, məxfi məlumatların mühafizəsi və digər sahələri tənzimləyən daxili Siyasət və Prosedurlar yenilənmişdir.

## IV MƏRHƏLƏ
(oktyabr-dekabr 2020)

Bu, sonuncu mərhələ olaraq idman təşkilatları, digər qurumlar, idmançılar və onların köməkçi heyəti ilə sıx əməkdaşlığı və iş birliyini ehtiva edir. IV mərhələ intensiv seminar/ vebinar, şəxsi məsləhətləşmələri, davamlı əməkdaşlığı nəzərdə tutur.

AMADA-nın respublika idman federasiyalarının (assosiasiyalarının) nizamnamə, əsasnamə və ya hər hansı digər ali tənzimləyici sənədlərinin dopinqlə mübarizə sahəsinə aid olan müddəaların ÜADA Məcəlləsinə və yenilənmiş Standartlarına uyğunlaşdırılması məqsədilə həmin sənədlərin Məcəlləyə uyğunluğu yoxlanılmışdır. Hər bir qurum üçün ayrı-ayrılıqda təkliflər paketi hazırlanaraq federasiyaların (assosiasiyaların) diqqətinə çatdırılmışdır.

# 9 BEYNƏLXALQ FƏALİYYƏT

**37**
**BEYNƏLXALQ GÖRÜŞ**

**ÖLKƏ TƏMSİLÇİLİYİ**

- Ümumdünya Antidopinq Agentliyi
- Avropa Şurası
- YUNESKO

AMADA - İllik Hesabat 2020

# Beynəlxalq fəaliyyət

AMADA təmiz idmanın təşviqi məqsədilə beynəlxalq arenada fəal iştirak edir. Milli antidopinq təşkilatı kimi, AMADA hər zaman milli səviyyədə fəaliyyətini təkmilləşdirmək və beynəlxalq səviyyədə dopinqlə mübarizəyə töhfə vermək əzmindədir. AMADA inanır ki, qarşılıqlı faydalı əməkdaşlıq həm ölkə daxilində, həm də qlobal arenada faydalıdır.

AMADA idmançıların hüquqlarının qorunmasına xüsusi diqqət göstərir. Qlobal antidopinq cəmiyyətinin tərəfdaşı kimi, AMADA beynəlxalq antidopinq fəaliyyətinin inkişaf etməsinin gender bərabərliyi, ifşaedənlərin müdafiəsi, insan hüquqları, idmançıların ədalət mühakiməsinə maneəsiz çıxışı, milli antidopinq təşkilatların inkişafı və ümumdünya təhsil istiqamətlərinə öz töhfəsini vermişdir. Təmiz idmanın və antidopinq fəaliyyətinin inkişafına həssas münasibətinə görə, AMADA müxtəlif beynəlxalq işçi qruplara dəvət almışdır. Bununla, AMADA-nın heyəti ekspert qismində beynəlxalq təşkilatların müxtəlif xüsusi və işçi qruplarının, habelə digər komitələrin üzvü seçilmişlər.

## Ölkə təmsilçiliyi

**AMADA Azərbaycanın Nümayəndə heyəti kimi**

- Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupu (T-DO)
- Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)
- YUNESKO-nun Tərəflərin Konfransı

## Ümumdünya Antidopinq Agentliyi (ÜADA)

### Təhsil

**ÜADA-nın Təhsil üzrə Daimi Komitəsinin üzvü (AMADA-nın direktoru)**

Vəzifələri:

- ÜADA rəhbərliyinə qısamüddətli təhsil strategiyaları və fəaliyyətinə, ÜADA-nın təhsil proqramlarına uzunmüddətli yanaşmalara, o cümlədən ÜADA tərəfindən maliyyələşdirilən sosial elmi tədqiqatların seçim prosesinə dair ekspert məsləhəti və tövsiyələr vermək.

### Milli Antidopinq Təşkilatlarının İnkişafı

**ÜADA-nın Milli Antidopinq Təşkilatları üzrə Ekspert Məsləhətçi Qrupunun üzvü (AMADA-nın direktoru)**

Vəzifələri:

- ÜADA rəhbərliyinə milli antidopinq təşkilatlarının effektiv dopinq nəzarəti strategiyaları və planlarının təşviqi üzrə proqramları və fəaliyyətləri, onların qısa və uzunmüddətli effektivliyinə dair ekspert məsləhəti və tövsiyələr vermək.



## Avropa Şurası

### Ədalət Mühakiməsinə Çıxış

**Avropa Şurasının "İdmançıların ədalət mühakiməsinə maneəsiz çıxışının təmin edilməsi" üzrə xüsusi ekspertlər qrupunun sədr müavini (T-DO HR) (AMADA-nın direktoru)**

Vəzifələri:

- Sədrlə birlikdə antidopinq icraatında ədalətli mühakimə prosedurunun ümumi prinsipləri üzrə layihə sənədinin hazırlanması üzrə qrupun işinin əlaqələndirilməsi.

### Koordinasiya Qrupu

**Avropa Şurası Monitorinq Qrupunun Koordinasiya Qrupunun üzvü (AMADA-nın direktoru)**

Vəzifələri:

- Avropa Şurasının Monitorinq Qrupunun Antidopinq Konvensiyası üzrə məsələlərin əlaqələndirilməsi.

### Gender Bərabərliyi

**CAHAMA-nın Gender Bərabərliyi üzrə Məruzəçisi (AMADA-nın direktoru)**

Vəzifələri:

- CAHAMA hökumətlərarası qurumunun bütün siyasətləri, prosedurları, qərarları və mandatlarında gender bərabərliyini təşviq etmək və dəstəkləmək.

### İfşaedənlərin Müdafiəsi

**Antidopinq Konvensiyasının Monitorinq Qrupunun İfşaedənlərin Müdafiəsi üzrə xüsusi ekspertlər qrupunun üzvü (T-DO WbP) (AMADA-nın hüquq şöbəsinin müdiri)**

Vəzifələri:

- Ekspert məsləhətini vermək və antidopinq təşkilatları və üzv dövlətlərə ifşaedənlərin müdafiəsi üzrə təlimata dair layihə sənədinin hazırlanmasında iştirak etmək.

AMADA - İllik Hesabat 2020

## Beynəlxalq görüşlər

AMADA təmiz idmana sadiqdir və beynəlxalq tədbirlərdə, müzakirələrdə fəal iştirak etməklə və öz təcrübəsini paylaşmaqla qlobal tərəfdaşlığın qurulmasında fəal rol oynayır. İl ərzində AMADA müxtəlif görüşlərdə, simpoziumlarda, hökümətlərarası görüşlərdə və monitorinq səfərlərində iştirak etmiş, beynəlxalq işçi görüşlərini keçirmiş və beynəlxalq təşkilatların işlərinə töhfə vermişdir.

### Mart

- **20** Ümumdünya Antidopinq Agentliyinin Milli Antidopinq Təşkilatları üzrə Ekspert Məşvərətçi Qrupu (WADA NADO EAG)
- **5** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun İdmançıların ədalət mühakiməsinə maneəsiz çıxışı üzrə Ekspert Qrupu (T-DO HR)
- **3-4** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun Hüquq üzrə Məşvərətçi Qrupu (T-DO LI)
- **2** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun İfşaedənlərin qorunması üzrə Ekspert Qrupu (T-DO WbP)

### Aprel

- **7** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun Koordinasiya Qrupu
- **22** Ümumdünya Antidopinq Agentliyinin Təhsil Komitəsi

### May

- **13** Ümumdünya Antidopinq Agentliyinin Təhsil Komitəsi

### İyun

- **3** Ümumdünya Antidopinq Agentliyinin Milli Antidopinq Təşkilatları üzrə Ekspert Məşvərətçi Qrupu (WADA NADO EAG)
- **10** Ümumdünya Antidopinq Agentliyinin Təhsil Komitəsi
- **24** YUNESKO-nun Milli Uyğunluq Platforması üzrə Məsləhətləşmələr
- **30** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun Koordinasiya Qrupu

### İyul

- **24** MDB Oyunları üzrə Təşkilat Komitəsi
- **21** MDB Oyunları üzrə Təşkilat Komitəsi

### Avqust

- **27** Polşa Antidopinq Agentliyi

### Sentyabr

- **29** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun Koordinasiya Qrupu
- **24** Ümumdünya Antidopinq Agentliyinin Təhsil Komitəsi
- **9** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun Uyğunluq üzrə Məşvərətçi Qrupu (T-DO COMP)
- **8** Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)

### Oktyabr

- **6** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun Koordinasiya Qrupu
- **13** YUNESKO-nun Milli Uyğunluq Platforması üzrə Məsləhətləşmələr
- **14** Ümumdünya Antidopinq Agentliyinin Təhsil Komitəsi
- **15** Ümumdünya Antidopinq Agentliyinin Təhsil Komitəsi
- **16** Ümumdünya Antidopinq Agentliyinin Təhsil Komitəsi
- **27** Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)
- **28** Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)

### Noyabr

- **30** Ümumdünya Antidopinq Agentliyi üzrə OneVoice Platforması
- **26** Ümumdünya Antidopinq Agentliyinin Milli Antidopinq Təşkilatları üzrə Ekspert Məşvərətçi Qrupu (WADA NADO EAG)
- **19** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun Təhsil üzrə Məşvərətçi Qrupu (T-DO ED)
- **16** Milli Antidopinq Təşkilatları İnstitutunun Ümumi Yığıncağı
- **10** Avropa Şurasının Gender Bərabərliyi Komissiyası
- **9** Avropa Şurasının Gender Bərabərliyi Komissiyası
- **9** Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Xüsusi Avropa Komitəsi (CAHAMA)

### Dekabr

- **8** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupunun Koordinasiya Qrupu
- **14** YUNESKO-nun Milli Uyğunluq Platforması üzrə Məsləhətləşmələr
- **16** Ümumdünya Antidopinq Agentliyinin Təhsil Komitəsi
- **17** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupu (T-DO)
- **18** Avropa Şurası Antidopinq Konvensiyası Monitorinq Qrupu (T-DO)

# Əməkdaşlıq və tərəfdaşlıq

## Yerli əməkdaşlıq

- Gənclər və İdman Nazirliyi
- Hüquq Mühafizə Orqanları
- Milli Olimpiya və Paralimpiya Komitəsi
- Milli Federasiyalar

## Beynəlxalq əlaqələr

- ÜADA
- YUNESKO
- Avropa Şurası
- Beynəlxalq Test Agentliyi
- İNADO
- MADT-lar
- Beynəlxalq Federasiyalar
- PWC
- Berlinger Special

# Əməkdaşlıq və tərəfdaşlıq

## Ölkədaxili əlaqələndirmə

Əməkdaşlıq və koordinasiyalı yanaşmanı rəhbər tutaraq AMADA maraqlı tərəflərin təcrübəsini tanıyır və qəbul edir. Öz növbəsində, həmin tərəflər dopinq təhlükəsinin qarşısını almaq üçün vahid mərkəzləşdirilmiş təşkilatla işləməkdən faydalanır.

AMADA dopinq təhlükəsinin bütün elementləri ilə mütəşəkkil mübarizə aparır. Bura, hüquq mühafizə orqanları, gömrük və sərhəd xidməti qurumları, tənzimləyici orqanlar, akademik təşkilatlar, idman və səhiyyə sektoru daxildir.

AMADA, antidopinq cəmiyyətinin kollektiv bacarıqlarını inkişaf etdirmək üçün Ümumdünya Antidopinq Agentliyi və digər beynəlxalq antidopinq təşkilatları ilə əlaqələri möhkəmləndirməyə davam edəcək ki, Azərbaycan idmançıları dünyada bütün olduqları yerlərdə bərabər şəraitdə mübarizə apara bilsinlər.

### Gənclər və İdman Nazirliyi

AMADA Azərbaycan antidopinq ictimaiyyətinin əsas tərəflərindən biri və ölkədə bütün idman fəaliyyətini idarə edən qurum olan Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə sıx əməkdaşlıq edir.

### Milli Olimpiya və Paralimpiya Komitələri

Milli Olimpiya və Paralimpiya Komitələri ilə bərabər tərəfdaşlıq ruhunda əməkdaşlıq idmanda dopinqlə mübarizə üçün zəruridir.





### Hüquq Mühafizə Orqanları

Qanuna əsasən AMADA hüquq mühafizə orqanları ilə Antidopinq qayda pozuntuları və dopinq nəzarəti üzrə zəruri məlumat mübadiləsini həyata keçirir. Əlavə olaraq, dopinq maddələri, xüsusilə anabolik steroidlər əksər hallarda qanunsuz idxal edilir və qara bazarda satılır. Bununla əlaqədar olaraq belə qanunsuz fəaliyyətin qarşısının alınması üçün səyləri birləşdirmək məqsədilə AMADA Daxili İşlər Nazirliyi, İNTERPOL-un Milli Mərkəzi Bürosu, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıq edir.

### Milli Federasiyalar

Respublika idman federasiyaları öz yurisdiksiyaları çərçivələrində hər bir idman növünü idarə edən təşkilatlardır. Dopinqlə müştərək mübarizə aparmaq, o cümlədən təmiz idmanı təşviq etmək və idmançıları və onların köməkçi heyətlərini məlumatlandırmaq məqsədilə, AMADA bütün milli federasiyalarla əməkdaşlıq edir və onların Məcəllə və beynəlxalq standartlara riayətini monitorinq edir.

## NARKOMANLIĞA VƏ NARKOTİKLƏRİN QANUNSUZ DÖVRİYYƏSİNƏ QARŞI MÜBARİZƏ

Azərbaycan Milli Antidopinq Agentliyi ölkə ərazisində antidopinq siyasətini aparır və beynəlxalq standarlara uyğun olaraq antidopinq proqramını həyata keçirir. Antidopinq proqramına müxtəlif idman növləri və yaş qruplarından ibarət olan idmançılar arasında maarifləndirmə işlərinin aparılması daxildir.

Bir sıra narkotik vasitələr və psixotrop maddələrin qadağan edilmiş siyahıda olmasını nəzərə alaraq, Azərbaycan Milli Antidopinq Agentliyi bu sahədə idmançılar üçün mühazirələr və seminarlar keçirir və onlara qadağan edilmiş maddələrin, o cümlədən narkotik vasitə və psixotrop maddələrin istifadəsində irəli gələn fəsadları vurğulayır. Azərbaycan Milli Antidopinq Agentliyinin tədbirlərinin əhatə dairəsi idmançılar və idmançılara köməkçi heyəti, habelə idman məktəblərində təhsil alan gənclərdir. Tədbirlər respublika idman federasiyalarında, idman klublarında, habelə digər idman subyektləri və təhsil müəssisələrində keçirilir.

Azərbaycan Milli Antidopinq Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrinin vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən yuxarıda qeyd olunan Dövlət Proqramına narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vasitələrdən istifadə etməklə təbliğat işinin təşkili, bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi, müvafiq qurumlarla əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi məqsədilə daxil edilmişdir.

Dövlət Proqramına qoşulmaqla, Azərbaycan Milli Antidopinq Agentliyi idmançılar və idmançılara köməkçi heyət, idman və digər məktəblərdə gənclər arasında narkotiklərin zərəri və təsirləri və antinarkomaniya barədə maarifləndirmə işlərini, mühazirələrin və seminarların keçirilməsini, və ictimaiyyətin məlumatlandırılması barədə tədbirləri həyata keçirəcək.

AMADA - İllik Hesabat 2020

# Beynəlxalq münasibətlər

AMADA təmiz idmanın təşviqi məqsədilə beynəlxalq arenada fəal iştirak edir. Milli antidopinq təşkilatı kimi, AMADA hər zaman milli səviyyədə fəaliyyətini təkmilləşdirmək və beynəlxalq səviyyədə dopinqlə mübarizəyə töhfə vermək əzmindədir. AMADA inanır ki, qarşılıqlı faydalı əməkdaşlıq həm ölkə daxilində, həm də qlobal arenada faydalıdır.

WORLD ANTI-DOPING AGENCY play true

## Ümumdünya Antidopinq Agentliyi

Ümumdünya Antidopinq Agentliyi (ÜADA) idman hərəkatı və dövlətlər tərəfindən təsis edilmiş və maliyyələşdirilən beynəlxalq müstəqil qurumdur. Əsas fəaliyyət istiqamətlərini elmi tədqiqat, təhsil, antidopinq fəaliyyətinin inkişafı və bütün idman növləri və bütün ölkələrdə antidopinq siyasətlərini birləşdirən sənəd olan Ümumdünya Antidopinq Məcəlləsinin monitorinqini təşkil edir. AMADA, öz gündəlik fəaliyyətində ÜADA ilə sıx əməkdaşlıq edir və ÜADA-nın tədbirlərində və xüsusi işçi qruplarında iştirak edir. Bu AMADA-ya ölkənin Məcəllə və Beynəlxalq Standartlara riayət statusunu dəstəkləməyə və eyni zamanda, qlobal səviyyədə dopinqlə mübarizəyə töhfə verməyə kömək edir.

UNESCO

## YUNESKO

Azərbaycan 23 iyul 2007-ci il tarixində YUNESKO-nun İdmanda Dopinqə qarşı Beynəlxalq Konvensiyasına tərəf olmuşdur. Konvensiyanın məqsədi beynəlxalq hüququn dopinqlə mübarizəyə tətbiq edilməsinə yönəlmişdir. Konvensiya Ümumdünya Antidopinq Məcəlləsini tanıyır, onun effektiv tətbiq edilməsini təmin edir, həmçinin dövlətlərin qlobal şəkildə dopinq probleminin həlli üçün istifadə edə biləcəkləri hüquqi çərçivəni təmin edir. YUNESKO-nun uyğunluq monitorinqi qaydalarına əsasən Azərbaycan Respublikası AMADA, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Milli Olimpiya Komitəsindən ibarət Milli Uyğunluq Platformasını yaratmışdır. AMADA ölkənin uyğunluğunun əlaqələndirilməsi üzrə Milli Əlaqələndirici təyin edilmişdir.

COUNCIL OF EUROPE CONSEIL DE L'EUROPE

## Avropa Şurası

Avropa Şurasının Antidopinq Konvensiyası 1 mart 1990-cı ildə qüvvəyə minmişdir. Konvensiya antidopinq qanunvericiliyinin əlaqələndirilməsi məqsədilə məcburi qaydaları müəyyən edir. Azərbaycan Konvensiya və onun Əlavə Protokolunu müvafiq olaraq 4 noyabr 2003-cü ildə və 11 fevral 2004-cü ildə ratifikasiya etmiş və bu sənədlər 2004-cü ildə qüvvəyə minmişdir. AMADA Avropa Şurasının Monitorinq Qrupu (T-DO) və Ümumdünya Antidopinq Agentliyi üzrə Avropa Şurasının Xüsusi Avropa Komitəsinin (CAHAMA) iclas və fəaliyyətlərində, o cümlədən müxtəlif işçi qruplarında iştirak edərək onlarla sıx tərəfdaşlıq edir.

ITA KEEPING SPORT REAL

## Beynəlxalq Test Agentliyi (BTA)

12 iyul 2019-cu il tarixində AMADA və BTA arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. AMADA-nın BTA ilə tərəfdaşlığı test keçirmə, araşdırma, idmançıların bioloji pasportları sahələrində məlumat və təcrübə mübadiləsi və digər qarşılıqlı maraq təşkil edən sahələrdə əməkdaşlığı əhatə edir. Müqavilə, həmçinin AMADA-nın, BTA-nın xahişi ilə BTA adından Nümunə Toplanması üçün Səlahiyyətli Qurum kimi çıxış etməsini nəzərdə turur. Sözügedən müqavilənin imzalanması, qabaqcıl təcrübədən faydalanmaq məqsədilə beynəlxalq əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi və daha yüksək nəticələrin əldə edilməsi üçün milli və beynəlxalq antidopinq səylərinin koordinasiyası baxımından əhəmiyyətlidir.

iNADO INSTITUTE OF NATIONAL ANTI-DOPING ORGANISATIONS

## Milli Antidopinq Təşkilatları İnstitutu

AMADA Milli Antidopinq Təşkilatlatrı İnstitutunun üzvü-dür. İnstitut dünyanın 100-dən çox milli antidopinq təşkilatını əhatə edir. İnsitut çərçivəsində AMADA antidopinq sahəsində digər təşkilatlarla məlumat mübadiləsi aparır və dopinqlə mübarizə istiqamətində müxtəlif təşəbbüs və layihələrdə iştirak edir.

## Milli Antidopinq Təşkilatları (MADT) və Nümunə Toplanması üçün Səlahiyyətli Qurumlar (NTSQ)

AMADA öz test keçirilməsini daha effektiv planlaşdırması və daha yaxşı məlumat mübadiləsi məqsədilə digər milli antidopinq təşkilatları və özəl nümunə toplama üçün səlahiyyəti olan qurumlarla sıx əməkdaşlıq edir. AMADA Türkiyə, Kanada, Rusiya, Belarus, Ukrayna, Bolqarıstan, Moldova Milli Antidopinq Təşkilatları ilə əməkdaşlıq müqavilələri imzalamış, həmçinin Almaniyada yerləşən beynəlxalq nümunə toplama üçün səlahiyyətli qurum olan "PWC" şirkəti ilə daima olaraq əməkdaşlıq edir.

AMADA - İllik Hesabat 2020

# Azərbaycan Antidopinq
## Xronoloji ardıcıllıq

### 2003

**04 Noyabr**
Avropa Şurası Antidopinq Konvensiyasının ratifikasiyası (təsdiqlənməsi)

### 2004

**11 Fevral**
Avropa Şurası Antidopinq Konvensiyasının Əlavə Protokol-unun ratifikasiyası (təsdiqlənmə-si)

### 2007

**23 İyul**
Birləşmiş Millətlər Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyasına qoşulma

### 2016

**29 Noyabr**
"İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanununun tətbiqi

**23 Dekabr**
Azərbaycan Milli Antidopinq Agentliyinin təsis edilməsi

### 2017

**04 Dekabr**
Ukrayna Milli Antidopinq Mərkəzi ilə Əməkdaşlıq Sazişi

UEFA ilə əməkdaşlıq sazişi

**30 Noyabr**
Belarusiya Milli Antidopinq Agentliyi ilə Əməkdaşlıq Sazişi

**21 Noyabr**
Rusiya Antidopinq Agentliyi ilə Əməkdaşlıq Sazişi

**22 Fevral**
Azərbaycan Milli Antidopinq Agentliyi Ümumdünya Antidopinq Məcəlləsini imzalamışdır

**20 Fevral**
Azərbaycanda antidopinq sisteminin inkişafı və gücləndirilməsi üzrə Ümumdünya Antidopinq Agentliyi, Polşa və Azərbaycan arasında əməkdaşlığa başlanılmışdır

**10 Fevral**
Azərbaycan Milli Antidopinq Agentliyi Milli Antidopinq Təşkilatları İnstitutunun üzvü oldu

### 2018

**06-07 Fevral**
Azərbaycanda Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupunun monitorinq səfəri keçirilib

**09 Mart**
Türkiyə Antidopinq Komissiyası ilə Əməkdaşlıq Sazişi

**12 İyul**
Tərəflər arasında məlumat mübadiləsi ilə bağlı "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin həyata keçirilməsi

**14-15 Noyabr**
Azərbaycan Ümumdünya Antidopinq Agentliyinin Bakıda İcraiyyə Komitəsinin və Təsisçilər Şurasının iclaslarına ev sahibliyi etdi

### 2019

**12 İyul**
Beynəlxalq Test Agentliyi ilə Əməkdaşlıq Sazişi

**26 İyun**
Bolqarıstanın Antidoping Mərkəzi ilə Əməkdaşlıq Sazişi

**03 İyun**
Moldova Milli Antidopinq Təşkilatı ilə Əməkdaşlıq Sazişi

### 2020

**1 Sentyabr**
Antidopinq xidmətlərinin göstərilməsi üzrə Saziş – Türkiyə Antidopinq Komissiyası

**25 Avqust**
Dopinq nəzarəti xidmətlərinin göstərilməsi üzrə Saziş- İdmanda etika üzrə Kanada Mərkəzi

**6 İyul**
Əməkdaşlıq Sazişi – Beynəlxalq Test Agentliyi

# MEDİA SİYASƏTİ



# Media siyasəti

## Media və Kommunikasiya

## Media siyasəti

AMADA kütləvi informasiya vasitələrinə antidopinq maarifləndirməsinin mühüm bir vasitəsi kimi yanaşır. Elə buna görə də ənənəvi mətbuatın və sosial medianın imkanlarından maksimium faydalanmağa çalışır. Məqsəd dopinq nəzarətinin və təmiz idman dəyərlərinin əhəmiyyətini ictimaiyyətə daha dolğun çatdırmaqdır.

## Mətbuatla əməkdaşlıq

AMADA-nın mətbuatla münasibətləri şəffaflıq, operativlik və informasiya əlçatanlığı prinsiplərinə əsaslanır. COVİD 19 pandemiyasının çətinliklərinə baxmayaraq 2020-ci ildə də AMADA bu prinsiplərə sadiq qalaraq media ilə əlaqələrini karantin rejiminin tələblərinə uyğunlaşdırdı. Mətbuat konfransları və mətbuat nümayəndələri ilə görüşlər videokonfrans formatında keçirildi. İl ərzində AMADA tərəfindən verilən mətbuat üçün açıqlamalar və media nümayəndələrinin sorğuları əsasında televiziyalar, elektron mətbu orqanlar və qezetlərdə AMADA-nın fəaliyyəti və ümumiyyətlə antidopinq sahəsi ilə bağlı yüzlərlə xəbər yayımlanıb.

Media ilə sıx əməkdaşlığın əsas nümunələrindən biri də artıq ənənə halını alan mütəmadi görüşlərin keçirilməsidir. Belə ki, Milli Mətbuat Günü ilə əlaqədar AMADA media nümayəndələri üçün ilk dəfə "virtual kafe" formatında videokonfrans keçirdi. AMADA və kütləvi informasiya vasitələrini birləşdirən prinsiplər və antidopinq sahəsində KİV-in rolu mövzularına həsr olunmuş tədbir özü də media qurumlarını maarifləndirmə prosesində aktiv şəkildə cəlb edilməsinini hədəfləyirdi.

Antidopinq sahəsi ilə bağlı ictimaiyyətin doğru və dolğun şəkildə məlumatlandırılması üçün media nümayəndələrinin dəstəyi maarifləndirilməsi vacibdir.





## Sosial media

**Azerbaijan National Anti-Doping Agency** @amada_aze

Sosial media AMADA üçün həm ictimaiyyətlə əlaqələr, həm də antidopinq maarifləndirməsi baxımından ən effektiv vasitələrdən biridir. Sosial medianın müxtəlif auditoriyalara xitab etmək kimi üstünlükləri mövcuddur. Bunu nəzərə alaraq AMADA-nın əsas populyar sosial şəbəkələrdə hesabları mövcuddur. AMADA-nın Facebook, Instagram, Twitter və Linkedin sosial şəbəkələrindəki hesablarının aktiv şəkildə istifadəsi ümumi media siyasətinin tərkib hissəsidir. Sosial media üzərindən edilən paylaşımlar sosial şəbəklərin və izləyici kütləsinin xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir. Sosial şəbəkələrdə AMADA-nın missiyası, ölkədə həyata keçirilən dopinq nəzarəti, antidopinq qayda pozuntuları, qadağan edilmiş maddə və üsullarla bağlı mütəmadi olaraq maraqlı məzmunlu məlumatlar verilir. İl ərzində sözügedən sosial şəbəkələrdə 470 paylaşım edilib. Bundan əlavə izləyicilər tərəfindən antidopinq sahəsi ilə bağlı ən çox verilən sualların cavablarından ibarət 15 ədəd videoçarx hazırlanaraq AMADA-nın sosial şəbəkələrdəki səhifələrində yerləşdirilib.

123 345 234

## Tədbirlər

**5 sentyabr 2020-ci il tarixində** Beynəlxalq Xeyriyyəçilik Günündə "Təmiz Dünya" qadın və uşaq sığınacağında tədbir keçirilib. Tədbir çərçivəsində sığınacağa ərzaq və gigiyenik vasitələrdən ibarət yardım aparılıb. Bundan əlavə orada məskunlaşmış uşaqlar üçün üçün intelektual-əyləncəli oyun keçirilmiş və bütün uşaqlara hədiyyələr təqdim edilmişdir. Tədbirdə eyni zamanda koronavirus pandemiyası ilə mübarizənin yolları ilə bağlı onlarla maariflndirici söhbət aparılmışdır.

**24 sentyabr 2020-ci il tarixində** AMADA tərəfindən cəmiyyətdə anabolik steroidlərdən istifadənin yayılması və fəsadlarına həsr olunmuş geniş mətbuat konfransı keçirilmişdir. Tədbirdə Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru Şəfəq Hüseynli, Gənclər və İdman Nazirliyinin İdman Şöbəsinin müdiri Fərid Mansurov, TƏBİB-in Stasionar Tibbi Xidmətin Təşkili Şöbəsinin müdiri Kəmalə Ağayeva və Azərbaycan İdman Jurnalistləri Federasiyasının prezidenti Qabil Mehdiyev məsələnin ciddiliyi və aktuallığı barədə çıxış etmişlər. Tədbirdə dopinqin bir növü olan anabolik steroidlərdən istifadənin peşəkar idmanın sərhədlərini aşaraq cəmiyyət üçün ciddi probleme çevrildiyinə diqqət çəkilmişdir. Tibbi göstəriş olmadan steroidlərdən istifadənin fəsadları haqqında ictimaiyyət geniş məlumatlandırılmış və bundan bəhs edən videoçarx nümayiş etdirilmişdir. Tədbirdə steroidlərin yayılma səbəbləri, qanunsuz dövriyyəsi, buna qarşı mübarizə tədbirləri haqqında danışılmış, problemin miqyasını və aktuallığını nəzərə alaraq ictimaiyyətin bu mübarizəyə aktiv qoşulmasının vacibliyi vurğulanmışdır.

AMADA tərəfindən **22 dekabr tarixində** 2020-ci ilin nəticələrəninə həsr olunmuş mətbuat konfransı keçirmişdir. Videokonfrans formatında keçirilən tədbirdə AMADA-nın direktoru Şəfəq Hüseynli AMADA-nın il ərzindəki fəaliyyəti və görülən işlərlə bağlı media nümayəndələrinə ətraflı məlumat vermiş və onları maraqlandıran sualları cavablandırmışdır.





STEROİDLƏ
MÜBARİZƏ





MİLLİ
MƏTBUAT
GÜNÜ
145
















470
SOSİAL
MEDİA
PAYLAŞIMI





# 12 SOSİAL MƏSULİYYƏT



# Sosial məsuliyyət

AMADA üçün sosial məsuliyyət məqsədyönlü strateji xətdir. Çünki hər bir qurum qanunla cavabdeh olduğu vəzifə və öhdəliklərini yerinə yetirməklə bərabər cəmiyyətin bir parçası olduğunu da unutmamalıdır. Elə bu baxımdan AMADA sosial məsuliyyət tədbirlərinə böyük əhəmiyyət verir. Bu məsuliyyət agentliyin öz kollektivinə, cəmiyyətə və ətraf mühitə həssas yanaşmanı əhatə edir.

## Yaşıl ofis

Sosial məsuliyyət AMADA üçün ilk növbədə ətraf mühitə həssas yanaşmanı və öz əməkdaşlarına sağlam və rahat iş şəraitinin yaradılmasını ifadə edir. Elə buna görə də qənaət, ətraf mühitə təsirlərin azaldılması və təkrar istehsal məhsullarından istifadəyə əsaslanan "Yaşıl ofis" prinsiplərini tətbiq edir. AMADA-nın gündəlik fəaliyyətində kağız istifadəsi minimuma endirilib. Ofis daxili bütün kargüzarlıq və sənədləşmə işləri mümkün qədər elektron qaydada həyata keçirilir. Bundan əlavə ofisdə tullantılar çeşidlənir və əsasən təkrar istehsal məhsullarından istifadə edilir. "Yaşıl ofis" həm də ofis resurslardan səmərəli və qənaətli istifadəni, əməkdaşların ekoloji istehlak haqqında maarifləndirilməsini ehtiva edir. Sevindirici haldır ki, AMADA qısa müddət ərzində ətraf mühitə qarşı həssas kollektiv formalaşdıra bilib.

## Sosial məsuliyyət tədbirləri

Sosial məsuliyyət AMADA üçün ətraf mühitlə bərabər cəmiyyət qarşısında da həssaslıq nümayiş etdirmək deməkdir. 2020-ci il ərzində də müxtəlif sosial məsuliyyət tədbirləri həyata keçirilib. Gender bərabərliyi, qadın və uşaq hüquqlarının qorunması məsələsinə hər zaman diqqətlə yanaşan AMADA sosial məsuliyyət tədbirlərində də bu məsələni xüsusi diqqətdə saxlayır. Sosial məsuliyyət tədbirləri çərçivəsində qadın uşaq sığınacağı ilə bağlı bir neçə aksiya həyata keçirilib. İl ərzində "Təmiz Dünya" qadın və uşaq sığınacağına ərzaq və zəruri gigiyena vasitələrindən ibarət yardımlar edilib.

Bundan əlavə sentyabr ayında Beynəlxalq Xeyriyyəçilik Günündə qadın və uşaq sığınacağına yardım aparılıb və uşaqlar üçün intellektual-əyləncəli oyun keçirilib.

## COVID 19-la mübarizə

2020-ci il bütün dünyanı həm də pandemiya ilə sınağa çəkdi. Koronavirus pandemiyası sosial məsuliyyətin əhəmiyyətini bir daha göstərdi. COVİD 19 pandemiyası artıq ölkəmizdə yayılmağa başlayanda AMADA bu mübarizəyə töhfə verən ilk qurumlardan biri olmuşdur. Pandemiyanın başladığı ilk vaxtlarda, yəni mart ayında AMADA tərəfindən Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait köçürülmüşdür. Pandemiyanın hökm sürdüyü müddətdə AMADA-nın fəaliyyəti karantin rejiminin bütün tələblərinə tam uyğun qurulmuş, əməkdaşların sağlamlığı və təhlükəsizliyi üçün bütün zəruri tədbirlər görülmüşdür.







Xarı Bülbül Qarabağda sülh və əminamanlığın rəmzidir. Həmçinin, Azərbaycan Ordusunun zəfərinin simvolu və İkinci Qarabağ Müharibəsində Şəhid olan əsgərlərin xatirəsinin rəmzidir.

**QARABAĞ**
**AZƏRBAYCANDIR**






























**UŞAQLAR**
**BİZİM**
**GƏLƏCƏYİMİZDİR**







# Qısaltmaların siyahısı

| | |
|---|---|
| AGOF | Avropa Gənclər Olimpiya Festivalı |
| AK | Apellyasiya Komitəsi |
| AM | Anlaşma Memorandumu |
| AMADA | Azərbaycan Milli Antidopinq Agentliyi |
| AQP | Antidopinq Qayda Pozuntusu |
| AŞ | Avropa Şurası |
| BF | Beynəlxalq Federasiya |
| BOK | Beynəlxalq Olimpiya Komitəsi |
| BST | Beynəlxalq Standartlaşma Təşkilatı |
| BTA | Beynəlxalq Test Agentliyi |
| CAHAMA | Avropa Şurasının Ümumdünya Antidopinq Agentliyi üzrə Ad Hoc Avropa Komitəsi |
| DGK | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi |
| DİN | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi |
| DNİ | Dopinq Nəzarəti İnspektoru |
| DNM | Dopinq Nəzarəti Müşaiyətçisi |
| DSX | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti |
| GİN | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| İAM | İdman Arbitraj Məhkəməsi |
| İBP | İdmançının Bioloji Pasportu |
| İGD | İdman Göstəricilərini artıran Dərman |
| İİK | İşlərin İdarəedilməsi Komissiyası |
| İK | İntizam Komitəsi |
| İKH | İdmançıya Köməkçi Heyət |
| İMK | İdmançılar Məsləhətçi Komissiyası |
| MADT | Milli Antidopinq Təşkilatı |
| MADTİ | Milli Antidopinq Təşkilatları İnstitutu |
| MF | Milli Federasiya (Respublika İdman Federasiyası) |
| MOK | Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi |
| MPK | Azərbaycan Respublikasının Milli Paralimpiya Komitəsi |
| MTQ | Milli Test Qrupu |
| NTH | Nümunə Toplanması Heyəti |
| NTSQ | Nümunə Toplanması üçün Səlahiyyətli Qurum |
| QəAN | Qeyri-əlverişli Analiz Nəticəsi |
| QNİ | Qan Nəzarəti İnspektoru |
| QTQ | Qeydiyyata alınmış Test Qrupu |
| RİF | Respublika İdman Federasiyası (Milli Federasiya) |
| TBP | Test Bölüşdürmə Planı |
| T-DO | Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupu |
| T-DO ED | Təhsil üzrə Məşvərət Qrupu (T-DO) |
| T-DO HR | "İdmançıların ədalət mühakiməsinə maneəsiz çıxışının təmin edilməsi" üzrə xüsusi işçi qrupu (T-DO) |
| T-DO LI | Hüquqi Məsələlər üzrə Məşvərət Qrupu (T-DO) |
| T-DO WbP | İfşaedənlərin Müdafiəsi üzrə Məşvərət Qrupu (T-DO) |
| Tİİ | Terapevtik İstifadə üçün İstisna |
| TİİK | Terapevtik İstifadəyə İcazə Komitəsi |
| ÜADA | Ümumdünya Antidopinq Agentliyi |
| ÜADM | Ümumdünya Antidopinq Məcəlləsi |
| YUNESKO | Birləşmiş Millətlər Təşkilatının mədəniyyət, elm və təhsil sahəsi üzrə ixtisaslaşmış təşkilatı |

AMADA

+994 12 599 08 28
+994 50 218 82 06

office@amada.az
www.amada.az

2020